

Milli azadlıqdan
şirin nemət yoxdur!

# 1 olaq Sentyabrda -ci Partiyaya səs verək!




YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

10 avqust 2024-cü il, şənbə
№ 143 (6729)
Qiyməti 60 qəpik


# 2 ildə 16-cı səfər...

## İlham Əliyev: Dünyada artan təhdid və çağırışlar ölkələrimiz arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da gücləndirilməsini tələb edir



Bax səh. 2

## Yeni Azərbaycan Partiyası seçkiqabağı təşviqat kampaniyasına start verib

Bax səh. 3

## Sülh və əməkdaşlıq platforması...



Bax səh. 2



Bax səh. 3

## YAP Mərkəzi Aparatında görüş

## Növbəti qələbəmiz!

Bax səh. 2

## Avropadakı rüşvət qalmaqallarında erməni izi...



Bax səh. 6

Bax səh. 8

# 2 ildə 16-cı səfər...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak etmək üçün avqustun 8-də Qazaxıstana səfərə gəlib.

***

Avqustun 8-də Qazaxıstanın paytaxtı Astana şəhərində "Veçer drujbı" adlı qala konsert keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti





İlham Əliyev tədbirdə iştirak edib.

***

Avqustun 9-da Astanada Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə "Mərkəzi Asiya Dövlət Başçılarının Fəxri nişanı"nın təntənəli təqdim edilməsi mərasimi keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev və digər dövlət başçıları tədbirdə iştirak ediblər.

***

Avqustun 8-də Qazaxıstanın paytaxtı Astanada dövlət başçılarının qeyri-rəsmi şam yeməyi olub.

Prezident İlham Əliyev tədbirdə iştirak edib.

***

Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstanın paytaxtı Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak edib.

Azərbaycan Prezidenti tədbirdə çıxış edib.

Mərkəzi Asiya Dövlət Başçılarının görüşündə fəxri qonaq qismində iştirak üçün dəvətə görə Qazaxıstan Prezidentinə təşəkkür edən dövlətimizin başçısı ötən il Tacikistan Prezidenti Emoməli Şaripoviç Rəhmonun dəvəti ilə Düşənbədə keçirilən Sammitdə iştirak etdiyini xatırladıb: "Azərbaycanın bu görüşlərə dəvət olunması ölkələrimiz arasında mövcud dostluq, qardaşlıq münasibətlərindən və inkişaf etməkdə olan əməkdaşlıqdan xəbər verir.

Bu, son iki ildə mənim Mərkəzi Asiya ölkələrinə 16-cı səfərimdir. Həmin müddətdə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan olan həmkarlarım Azərbaycanı ümumilikdə 15 dəfə ziyarət ediblər.

Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur. Xalqlarımızı çoxəsrlik tarix, mədəniyyət, din və ortaq dəyərlər birləşdirir".

Ermənistanın işğalından azad edilmiş Qarabağın bərpasına dəstəyin qardaşlıq münasibətlərimizin təzahürlərindən biri olduğunu söyləyən Prezident İlham Əliyev xatılrladıb ki, Ermənistan tərəfindən təxminən 30 illik işğal dövründə bu ərazilərdə 9 şəhər və yüzlərlə yaşayış məntəqəsi məhv edilib. İşğaldan azad olunmuş ərazilərdə hazırda genişmiqyaslı bərpa işləri aparılır və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı davam edir: "Ötən il Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan Mirzə Uluqbəy adına orta məktəbin, bu il isə Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışı olub. Həmçinin bu il Ağdam rayonunda Qırğızıstanın hədiyyəsi olan orta məktəb binasının təməlqoyma mərasimi keçirilib. Bu qardaşlıq dəstəyinə görə Özbəkistan, Qazaxıstan və Qırğızıstan prezidentlərinə təşəkkürümü bildirirəm".

Dövlətimizin başmısı vurğulayıb ki, dünyada artan təhdid və çağırışlar ölkələrimiz arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da gücləndirilməsini tələb edir. Prezident ötən ay Qazaxıstanda keçirilmiş və Azərbaycanın da iştirak etdiyi "Birləşdik-2024" beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimini xüsusilə qeyd edib və əlavə edib ki, Azərbaycanın hərbi təhsil müəssisələrində Mərkəzi Asiya ölkələrindən olan müdavimlərin təhsil almaları bu sahədə münasibətlərin inkişafının göstəricisidir.

Azərbaycanın bərpaolunan enerji sahəsində Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıqda maraqlı olduğunu bildirən dövlətimizin başçısı bəyan edib ki,. bu ilin may ayında imzalanmış "Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi üzrə Əməkdaşlıq Memorandumu" yaşıl enerji sahəsində əməkdaşlığımızda ilk addımdır.

Qarşılıqlı fəaliyyətimizin mühüm istiqamətlərindən birinin də nəqliyyat-tranzit sahəsində əməkdaşlıq olduğunu söyləyən Prezident İlham Əliyev deyib: "Bakı-Tbilisi-Qars dəmir yolunun yükaşırma qabiliyyətinin 1 milyon tondan 5 milyon tonadək artırılması, Ələt Beynəlxalq Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tonadək artırılması istiqamətində görülmüş işlər, Xəzər dənizində Azərbaycanın ticarət donanması üçün yeni gəmilərin sifariş edilməsi, eləcə də Mərkəzi Asiya ölkələrində infrastruktur layihələrinin həyata keçirilməsi Orta Dəhlizin praktiki cəhətdən önəmini daha da artırır".

Qazaxıstan, Qırğızıstan və Özbəkistan ilə fəal şəkildə investisiya layihələrinin həyata keçirildiyini bildirən dövlətimizin başçısı artıq ölkələrimiz arasında birgə investisiya fondları yaradılıb, həyata keçirilən "Rəqəmsal İpək Yolu" layihəsi rəqəmsal infrastrukturun inkişafına və



## İlham Əliyev: Dünyada artan təhdid və çağırışlar ölkələrimiz arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da gücləndirilməsini tələb edir

rəqəmsal təhlükəsizliyə töhfə verəcək.

Prezident Azərbaycan və Mərkəzi Asiya ölkələrinin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiklərini diqqətə çatdırıb və bu xüsusda, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı - SPECA-nı qeyd edib: "Ötən ilin noyabr ayında Bakıda keçirilmiş, SPECA-nın 25 illiyinə həsr olunmuş Zirvə görüşünün nəticələri əməkdaşlığımızın praktiki inkişafı baxımından əhəmiyyət kəsb





edir. SPECA-nın Bakıda keçirilən Sammitində iştirak etdiklərinə görə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan prezidentlərinə bir daha təşəkkür edirəm.

Azərbaycan beynəlxalq ictimaiyyətin yekdil dəstəyini qazanaraq bu ilin noyabr ayında COP29 iqlim konfransına ev sahibliyi edəcəkdir.

Azərbaycan COP29-a sədrliyi çərçivəsində regionumuzda iqlim dəyişmələri ilə bağlı problemlərin həlli üçün Mərkəzi Asiya ölkələri ilə birgə təşəbbüsləri dəstəkləməyə hazırdır.

Mən artıq Mərkəzi Asiya ölkələrinin prezidentlərinə rəsmi dəvət məktubları göndərmişəm və noyabrda Bakıda yenidən görüşməyimizə şad olaram".

***

Avqustun 9-da Astanada Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından dövlət başçılarının şərəfinə rəsmi qəbul verilib.

Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.




# Növbəti qələbəmiz!

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Həsrət Cəfərovun Olimpiya Oyunlarının bürünc medal mükafatçısı olması ilə bağlı paylaşım edib.**

**Paylaşımda deyilir: "Ura! Növbəti qələbəmiz! Azərbaycanın yunan-Roma güləşçisi Həsrət Cəfərov bürünc medal qazandı! İdmançımızı səmimi-qəlbdən təbrik edirəm! Azərbaycan azarkeşlərinə bəxş etdikləri sevincə görə bütün qaliblərə təşəkkürümü bildirirəm!"**

# Sülh və əməkdaşlıq platforması...

Post-müharibə dövründə sülhün və əmin-amanlığın, paralel olaraq iqtisadi inkişafın düsturunu təqdim edən Azərbaycan bölgədə təhlükəsizlik seqmentinin yüksəldilməsinə çalışır. 2 ildən artıqdır davam edən sülh prosesinə adekvat yanaşmayan, min bir bəhanə ilə prosesi uzatmağa çalışan Ermənistan isə bunun tam əksinə, ümumən bölgə üçün təhdid olmaqda israrlıdır. İntensiv olaraq Fransa və Hindistan vasitəsilə silahlandırılan, sülh müqaviləsi əvəzinə "gizli sövdələşmələrə" imza atan İrəvanın tutduğu yol olduqca təhlükəlidir. Onsuz da tarixən xarici maraqların aləti kimi çıxış edən Ermənistan yaranan fürsətdən istifadə etmək istəmir - Azərbaycanın təklif etdiyi sülh İrəvan üçün müstəqil dövlətçiliyinin həm xilası, həm də nicatıdır. Ermənistan isə bunun əksinə gizli danışıqlar apararaq, yenidən fərqli maraqlara boyun əyərək, onların əlaltısına çevrilərək regional əməkdaşlığa kölgə salır, bütövlükdə qonşuları üçün təhlükə formalaşdırır.

Bu ilin yazında, konkret olaraq aprelin 5-də Ermənistanın Aİ və ABŞ ilə bağladığı "müqavilə"nin əsas mahiyyətinin hərbi direktivlər olması ilə bağlı şübhələrdən yazmışdıq - həmin vaxt da bildirmişdik ki, keçirilən üçtərəfli görüşün detalları ilə bağlı məlumat yayılarkən "hərbi pakt" amilinin səsləndirilməməsinin altında bir sıra gizli maraqlar yatır. Belə ki, o dövrdə də rəsmi açıqlamalardan başqa görüşdə məxfi komponentlərin olması istisna edilmirdi və bu məsələnin zaman keçdikcə aşkara çıxacağı bəlli idi.

## Ermənistan yeni oyunların iştirakçısına çevrilir

Artıq yavaş-yavaş bəzi gizlinlər aşkara çıxır. Regiona yaxın coğrafiyada, konkret olaraq Yaxın Şərqdə və İranda yaranan gərgin siyasi-hərbi situasiya Ermənistanın hiyləgər və bölgənin maraqlarına qarşı oynadığı bəzi oyunların ştrixlərini ortaya çıxarır. Onsuz da Cənubi Qafqaza nüfuz etmək uğrunda açıq mübarizə aparan bəzi qüvvələr Ermənistanın mütiliyindən və mövqesizliyindən istifadə edərək öz niyyətlərini həyata keçirirlər. Bəlli olduğu kimi yayılan son informasiyalarda ABŞ-ın Ermənistana yeni silah-sursat və hərbi qulluqçular gətirdiyi bildirilir. Belə ki, Flightradar qlobal uçuş izləmə xidmətinin məlumatına görə, avqustun 2-də və 3-də ABŞ-ın Rumıniya və Yaxın Şərqdəki hərbi bazalarından Ermənistanın Zvartnots hava limanına doğru 2 hərbi təyyarə qalxıb. Caliber.az-ın etibarlı mənbələrdən əldə etdiyi məlumata görə, ABŞ Silahlı Qüvvələrinə məxsus "Boeing C-17" hərbi yük təyyarəsi ilə şəxsi heyət hərbi yüklərlə birlikdə Zvartnots hava limanına gətirilib. Beləliklə, yuxarıda da qeyd etdiyimiz kimi, 5 apreldə Brüsseldə imzalanmış sənədin gizli hərbi əməkdaşlığı nəzərdə tutulan hissəsi artıq üzə çıxır. Bu "razılaşmaya" uyğun olaraq Ermənistan silahlı Qüvvələrinə ABŞ istehsalı olan yeni nəsil silahlar - snayper tüfəngləri, gecəgörmə cihazları, xüsusi rabitə vasitələri, zirehli zirehli texnika gətirilib. Təyyarədə həmçinin Ermənistan xüsusi təyinatlıları üçün ABŞ ordusunda istifadə edilən mini-hücum pilotsuz təyyarələri, kiçik ölçülü minalar və digər döyüş sursatları da yer alıb.

## Hərbi təxribatlar...

Əslində Ermənistanın sülh üçün səfərbər olmaması, "Eagle Partner 2024" adlı Ermənistan-ABŞ birgə təlimlərindən ruhlanaraq fərqli iddialara düşmək istəyəcəyi əvvəlcədən bəlli idi. Bu gün baş verənlər də müəyyən mənada həmin "arzuların" proyeksiyası sayıla bilər. Bundan əvvəl ABŞ Ermənistan xüsusi təyinatlıları üçün bu sursatlardan istifadə üzrə təlimlər keçirib, bundan sonra Ermənistan tərəfi silahları real şəraitdə sınaqdan keçirmək üçün Kəlbəcər istiqamətində Azərbaycan ordusunun bölmələrinə qarşı hərbi təxribat törədib. ABŞ hərbi yük təyyarələri ilə Ermənistana çatdırılan külli miqdarda silah və sursatların yerli relyef və hərbi şəraitə uyğunlaşdırıldığı da bildirilir. Bu fəaliyyət zamanı Aİ missiyasının Azərbaycan ordusunun mövqeləri ilə bağlı topladığı kəşfiyyat məlumatlarından da istifadə edilib.

Ermənistan bölgədə sülhə qarşı yeni təxribatlar düşünməkdədir və baş verə biləcək hər hansı bir narahatlıq bütövlükdə regionun maraqlarına zərbə vuracaq. Nəzərə alınmalıdır ki, Azərbaycanın yaratdığı yeni iqtisadi reallıqlar yalnız Cənubi Qafqazı əhatə etmir - əksinə, bu potensial iqtisadi-ticari əməkdaşlıq platforması Cənubi Qafqazla yanaşı Mərkəzi Asiyanı, İranı, Rusiyanı, Gürcüstanı və Türkiyəni də özündə birləşdirir. Başqa sözlə, Ermənistan bu kimi təxribatçı addımları ilə tək Azərbaycana deyil, adıçəkilən bütün ölkələrə təhlükə yaradır. Xüsusilə, toplanan kəşfiyyat materiallarının hansı prizmadan istifadə ediləcəyi bəlli olmadığı üçün Ermənistanın davranışları böyük faciələrə də yol aça bilər.




## İrəvan Tehranı da satdı...

İrəvanın bütövlükdə bölgəyə təhdid yaratmasının bariz sübutu isə yayılan informasiyalarda da özünü göstərir. Bildirilir ki, Zvartnotsa enən təyyarələrdən birində İran ərazisindən buraxılan raketlərin və digər təyyarələrin trayektoriyalarını izləyən xüsusi alətlər yer alıb. Bu zaman İran ərazisindən İsrailə mümkün hücum riski xüsusilə nəzərə alınıb. Gətirilən qurğular Ermənistanın İranla sərhədində yerləşdiriləcək. Prosesin idarəçiliyi isə heç də Ermənistan hərbçilərinə həvalə edilməyib - bunun üçün 30-50 nəfərlik heyət də Ermənistana gətirilir. Bu hərbçilərin seçimi də olduqca diqqətlə yerinə yetirilib. Belə ki, onların əksəriyyəti Amerika ordusunda xidmət edən erməni əsilli ABŞ vətəndaşlarıdır. Bundan başqa heyətdə, postsovet ölkələrindən ABŞ-a miqrasiya etmiş slavyan və Qafqaz əsilli insanlar da yer alır. Həmin şəxsi heyət komufulyaj edilmələri ilə bağlı Ermənistan silahlı qüvvələrinin hərbi geyimi ilə təchiz olunublar və Ermənistan silahlı qüvvələrinin Zəngəzurdakı hərbi bazasında yerləşdiriliblər.

Beləliklə, Ermənistanın əlaltından Qərbin anti-İran kampaniyasında da istifadə edilməsi faktı ortaya çıxır. Halbuki ötən dövrdə İran rəsmiləri dəfələrlə Ermənistanı dost, hətta qardaş ölkə adlandırmışdı. Çox uzağa getməyək, elə bugünlərdə İran İslam Respublikasının yeni prezidenti Məsud Pezeşkiyanın andiçmə mərasimində iştirak etmək üçün Tehrana gələn Nikol Paşinyan İranın ruhani lideri Əli Xamnei tərəfindən qəbul edilmişdi. Görüşdə isti və dostluq münasibətlərinin inkişafına yönəlmiş addımlarını davam etdirilməsinin vacibliyini vurğulanmışdı. Seyid Əli Xamenei bildirmişdi ki, "Biz Ermənistanla münasibətlərin inkişafına qəti inanırıq və iki ölkə arasında əməkdaşlıq aydın maraqlar əsasında və başqalarının siyasətini nəzərə almadan davam edəcək". İranın dini lideri bir daha Ermənistanın ərazi bütövlüyünün qorunub saxlanmasının vacibliyini vurğulamışdı və qeyd etmişdi ki, İran İslam Respublikası Zəngəzur dəhlizinin Ermənistanın maraqlarına uyğun olduğunu hesab etmir.

Bu da İrəvanın İrana "dostluq cavabı". İrana qarşı hazırlanan kampaniyanın aktiv iştirakçısına çevrilən Ermənistan bu dəfə öz dostunu arxadan vurdu. Əslində bu, ilk deyil - illərlə çörəyini yediyi, onu himayə edən Rusiyanı Qərbin marağına satan Ermənistanın İrana da arxa çevirməsi təəccüblü görünməməlidir.

## Milli maraqların tələbi ilə...

Azərbaycan isə regiona fərqli mesajlar verməkdədir. Sülh və inkişaf, əməkdaşlıq və sabitlik kimi bəşəri dəyərləri təbliğ edən ölkəmiz özünün qətiyyətli siyasi mövqeyi ilə seçilir. Yalnız milli maraqlara əsaslanan xarici siyasət kursu isə çoxtərəfli əsaslara söykənir. Azərbaycandakı xalq-dövlət birliyi sabitliyin, monolitliyin və inkişafın əsas stimulvericisi rolunda çıxış edir. Dövlət xalqın maraqlarını əsas götürərək özünün siyasi hədəflərini müəyyənləşdirir. Xalq isə dövlətinin arxasında vahid güc kimi çıxış edərək bu siyasətin daha da güclənməsinə dəstək verir. Beləliklə, nə Qərb, nə də başqa maraqlı dövlətlər Azərbaycanın yürütdüyü proseslərə müdaxilə etmək imkanı əldə edə bilmirlər. Paralel olaraq Azərbaycan bölgəmizi dünyanın aparıcı iqtisadi xəttinə çevirməyə çalışır. Ermənistan isə yenidən çirkin oyunların aləti kimi çıxış edir

***S.İSMAYILZADƏ***



# Yeni Azərbaycan Partiyası seçkiqabağı təşviqat kampaniyasına start verib



2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar avqustun 9-da seçkiqabağı təşviqat mərhələsi başlanıb.

Seçkilərə “Yeni dövrə Yeni Azərbaycanla!” şüarı ilə qatılan Yeni Azərbaycan Partiyası (YAP) təşviqat kampaniyasına uğurla start verib.

Avqustun 9-u saat 00:00-dan etibarən YAP-ın 125 seçki dairəsi üzrə deputatlığa namizədlərinin təşviqat plakatları qanunvericiliyin tələblərinə müvafiq olaraq müəyyən edilmiş ünvanlarda yerləşdirilib.

# YAP Mərkəzi Aparatında ATƏT DTİHB Seçki Müşahidə Missiyasının əsas heyətinin üzvləri ilə görüş keçirilib







Avqustun 9-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Seçki Müşahidə Missiyasının rəhbəri Ditmir Buşati, missiya rəhbərinin müavini Elissavet Karagiannidou və siyasi analitik Noemi Arçidiakono ilə görüş keçirilib.

Görüş imkanının yaradılmasına görə təşəkkürünü bildirən Ditmir Buşati ATƏT DTİHB missiyasının tərkibi və fəaliyyəti barədə məlumat verib. O, rəhbərlik etdiyi heyətin ATƏT DTİHB-nin Azərbaycandakı 14-cü seçki müşahidə missiyası olduğunu söyləyib. O, Azərbaycanda seçkilərə hazırlıq prosesini öyrənmək məqsədilə müvafiq dövlət qurumlarının nümayəndələri, seçkilərdə iştirak edən partiyalar və namizədlərlə görüşlər keçirdiklərini diqqətə çatdırıb.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycanın seçki təcrübəsi barədə ətraflı məlumat verib. O bildirib ki, Azərbaycan uzun illərdir ATƏT DTİHB ilə əməkdaşlıq edir, qurum ölkəmizdə keçirilən prezident, parlament və bələdiyyə seçkilərini müşahidə edir.

Tahir Budaqov 2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərlə əlaqədar bütün namizədlərə bərabər şəraitin yaradıldığını və yüksək rəqabət mühitinin olduğunu vurğulayaraq seçkilərin azad, şəffaf və demokratik şəraitdə baş tutacağına əminliyini ifadə edib. O, Yeni Azərbaycan Partiyasının seçkilərə hazırlıq tədbirləri, namizədlərin qeydiyyatı, partiyanın seçki platforması və digər təşviqat materialları haqqında ümumi məlumat verərək YAP-ın bütün prosedurları qanun çərçivəsində və maneəsiz olaraq həyata keçirdiyini bildirib. Tahir Budaqov hazırda qanunvericiliyin tələblərinə ciddi riayət olunmaqla seçkiqabağı təşviqat işlərinə başlanıldığını və partiya fəallarının bu prosesə aktiv cəlb edildiklərini diqqətə çatdırıb.

Daha sonra müşahidə missiyası üzvlərinin seçki prosesinə dair suallarını cavablandıran YAP Sədrinin müavini Tahir Budaqov missiyanın fəaliyyətinə uğurlar arzulayıb.

# YAP xalqın inam və etimadını layiqincə doğruldub



**79 saylı Astara seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Rəşad Mahmudov yap.org.az saytına müsahibə verib**

**- Rəşad müəllim, ölkəmiz 1 sentyabr - növbədənkənar parlament seçkiləri ərəfəsindədir. Azərbaycan bu seçkilərə hansı reallıqlar fonunda gedir?**

- Müasir müstəqil, qalib Azərbaycan, harada yaşamasından asılı olmayaraq hər bir soydaşımızın qürur mənbəyidir. Təbii ki, qazanılan uğurlar möhkəm təməlin mövcudluğuna, düşünülmüş və gələcəyə hesablanmış inkişaf strategiyasının uğurla həyata keçirilməsinə əsaslanır. Bugünkü reallıqlar Ulu Öndər Heydər Əliyevin zəngin idarəçilik təcrübəsinə, liderlik keyfiyyətlərinə, öz dövlətinə, xalqına bağlılığına, Azərbaycanı daim zirvələrdə görmək istəyinə əsaslanan uğurlu siyasəti sayəsində mümkün olmuşdur.

Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, Azərbaycan dünyada tarixi Zəfəri, ərazi bütövlüyü və suverenliyinin tam bərpası ilə yeni reallıqlar yaradan ölkə kimi tanınır. Bu reallıqlar fonunda hazırda Azərbaycan bütün sahələrdə yeniliklərə, təkmilləşməyə yönələn addımları ilə diqqətdədir. Prezident İlham Əliyev 2003-cü ildə xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Prezident seçildikdən sonra andiçmə mərasimində qarşıdakı dövrün hədəflərini açıqlayarkən bu məqamı da xüsusi qeyd etdi ki, Heydər Əliyev siyasəti davam etdiriləcək. Azərbaycan daha da güclənəcək, qüdrətlənəcək, yeni zəfərlərə doğru inamla addımlayacaq. Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin banisi, onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev isə Müzəffər lider kimi adını tarixə qızıl hərflərlə yazdı.

Bunlar müstəqillik tariximizin ən qürurverici hadisələridir. Bunları bilmək, indiki və gələcək nəsillərə çatdırmaq hər birimizin vətəndaşlıq borcudur. Dövlət başçısı İlham Əliyev 2021-ci ildə tarixi Zəfərimizin reallıqlarına, dövrün çağırışlarına uyğun olaraq keçirilən Yeni Azərbaycan Partiyasının VII qurultayında Azərbaycanın və partiyamızın keçdiyi çətin və şərəfli yoldan geniş bəhs edərək bu çağırışı etdi ki, o dövrü bilməyən, o vaxt yaşamayan gənc nəsil bilməlidir ki, nəyin bahasına biz müstəqilliyi qoruyub saxlaya bilmişik. Cənab İlham Əliyev qeyd etdi ki, əsl müstəqillik tariximiz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Çünki ona qədər müstəqillik sözdə var idi, amma faktiki olaraq yox idi.

Azərbaycan bugünün reallıqlarına nail olmaq üçün addım-addım irəlilədi. Bütün işlər ardıcıllıqla həyata keçirildi. Hədəflər düzgün müəyyən edildi və uğurla reallaşdırıldı. Beləliklə, dayanıqlı inkişaf təmin edildi, beynəlxalq aləmdə Azərbaycan çox böyük nüfuza və hörmətə malik olan ölkəyə çevrildi və əsas məsələ - ərazi bütövlüyümüzün bərpası təmin olundu.

Ötən parlament seçkilərindən bugünədək qazanılan uğurların zirvəsində tarixi Zəfərimiz, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edilməsi dayanır. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev ata vəsiyyətini yerinə yetirdiyi üçün xoşbəxtdir. Cənab İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Qarabağın tacı Şuşadan xalqa müraciət edərkən böyük qürur hissi ilə bildirdi ki, Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz Onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik.

Dörd ilə yaxındır ki, Qarabağımız, Şərqi Zəngəzurumuz dirçəlir, genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Azərbaycan dünyaya dirçəliş modelini təqdim edir. Ölkəmiz müharibədən dərhal sonra bərpa işlərinə başlamaqla bu sahədə də ilkə imza atdı. Müharibədən sonra quruculuq işlərini həyata keçirmək həm böyük güc, həm də böyük iqtisadi və maliyyə potensialı tələb edir. Azərbaycan bu addımı atmaqla həm bu torpaqların əsl sahibi, həm də böyük gücə, potensiala malik ölkə olduğunu dünyaya nümayiş etdirdi. Hazırda bütün işğaldan azad edilmiş torpaqlarımız cənnət məkana çevrilir. Böyük Qayıdış Proqramının birinci mərhələsinin başa çatacağı 2026-cı ilədək 140 min soydaşımızın doğma yurd-yuvasına qayıdışı nəzərdə tutulub.

Azərbaycan hər dövrün çağırışlarından irəli gələn vəzifələri yüksək səviyyədə yerinə yetirərək növbəti hədəfləri müəyyənləşdirir. Bugünümüzün çağırışları Yeni Azərbaycan Partiyasının “Yeni dövrə Yeni Azərbaycanla!” şüarında özünün aydın ifadəsini tapıb.

**- Heç şübhəsiz, xalq-lider birliyi uğurlarımızın əsasını təşkil edir və Azərbaycanı parlaq gələcəyə aparır...**

- Müstəqilliyimizin bərpasının ilk illərində yaşananlar tariximizin qaranlıq səhifəsi kimi vərəqlənir. Həmin reallıqlar hər bir ölkənin həyatında lider amilinin rolunu önə çəkərək sübut etdi ki, ölkəsinin, xalqının gələcəyini düşünməyən dövlət başçısına xalqın inamı, etimadı ola bilməz.

Xalq-iqtidar birliyi ölkədə sabitliyin, əmin-amanlığın təminatçısıdır. 1993-cü ildən bu günədək olan dövr bu birliyin, həmrəyliyin əsasında qazanılan uğurların təqdimatıdır. Prezident İlham Əliyev hər bir addımında xalqa arxalanır, xalqdan güc alır, insanları ətrafında sıx birləşdirərək yeni-yeni hədəflərə doğru inamla addımlayır. 44 günlük İkinci Qarabağ müharibəsinin rəmzinə çevrilən “Dəmir yumruq” həm gücümüzün, həm də birliyimizin, həmrəyliyimizin rəmzidir. Xalqımızın Prezidentinə inamı, etimadı, sevgisi sonsuzdur. Cənab İlham Əliyevin xalqa hər bir müraciəti özündə bu birliyi, həmrəyliyi ehtiva edir. Dövlətimizin başçısı bu çağırışı edir ki, həyata keçirilən siyasətin əsasında vətəndaş amili dayanır.

Vətəndaş məmnunluğunun artırılması prioritet məsələlər sırasındadır. Ölkəmizdə iqtisadi tərəqqi güclü sosial siyasətlə tamamlanır. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, yüksək rifah şəraitində yaşayışının təmin edilməsi istiqamətində atılan addımlar davamlıdır. Cənab İlham Əliyev daim sosial layihələrin icrasını xüsusi diqqətdə saxlayır. Əsas hədəf insanların rahat yaşayışını təmin etməkdir.

Yeni Azərbaycan Partiyasının seçki platformasında da bütün sahələrdə əldə edilən nailiyyətlər əsaslı şəkildə diqqətə çatdırılır. Bu istiqamətlərdən biri də sosial sahədir. Qarşıdakı dövrün hədəfləri dövlətimizin həyata keçirdiyi təkmil inkişaf modelinə uyğun olaraq əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial xidmətlərin əhatə dairəsinin genişləndirilməsi və xidmətlərə əlçatanlığın təmin edilməsi, həssas qruplara, o cümlədən aztəminatlı ailələrə, əlilliyi olan şəxslərə, müharibə iştirakçılarına və şəhid ailələrinə hərtərəfli dövlət qayğısının davam etdirilməsi, məşğulluq tədbirlərinin həyata keçirilməsi, yeni istehsal sahələrinin yaradılması və iş yerlərinin sayının artırılması, əməkhaqqı, pensiya və müavinətlərin artırılması siyasətinin davam etdirilməsi, sosial infrastruktur quruculuğunun diqqət mərkəzində saxlanılmasıvə digər məqsədlərdir.

Atılan addımlar xalq-iqtidar birliyini daha da möhkəmləndirir, Yeni Azərbaycan Partiyasına inam və etimadı artırır. Bu günədək keçirilən bütün seçki prosesləri bu reallığın təsdiqidir.

**- Rəşad müəllim, seçicilərin 1 sentyabr - növbədənkənar parlament seçkiləri ilə bağlı əhval-ruhiyyələri necədir?**

- Çox yüksək. Seçicilər yeni dövrə qədəm qoyan Azərbaycanın yeni hədəflərinin reallığa çevrilməsinə töhfələrini vermək üçün səsvermə prosesində yüksək fəallıq nümayiş etdirəcəklərini, Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini bildirirlər. Təbii ki, bu qərarları ölkəmizin davamlı inkişafına yönələn siyasətə inamlarından, Yeni Azərbaycan Partiyasının sözü ilə əməlinin birliyindən irəli gəlir. Seçiciləri səsvermə prosesində daha fəal olmağa, layiqli namizədlərə səs verməyə çağırıram.

# “YAP-ın namizədinə səs verəcəyik”



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 56 saylı Şabran-Xaçmaz seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Mahir Süleymanlının seçicilərlə görüşü keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov ölkəmizin siyasi sistemində aparıcı rola malik Yeni Azərbaycan Partiyasının bu seçkilərə Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz möhtəşəm Zəfərdən sonra yaranmış reallıqlardan irəli gələn hədəflərlə - Yeni dövrə Yeni Azərbaycanla qatıldığını diqqətə çatdırıb. O, deputatlığa namizəd Mahir Süleymanlı haqqında seçicilərə ətraflı məlumat verib.

Çıxış edən deputatlığa namizəd Mahir Süleymanlı əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlarından geniş bəhs edib. Bildirib ki, dövlət başçısının müstəqil və uzaqgörən siyasəti sayəsində istər ölkəmizdə, istərsə də bütövlükdə regionumuzda yeni reallıqlar yaranıb, qarşımızda yeni perspektivlər açılıb.

Mahir Süleymanlı çıxışında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb

Tədbirdə çıxış edən təşviqat qrupunun üzvləri qeyd ediblər ki, Yeni Azərbaycan Partiyası bu zamana qədər Azərbaycanın inkişafında müstəsna rol oynayıb, bundan sonra da ölkəmizin tərəqqisi naminə reallaşdırılacaq strateji kursa öz töhfələrini verəcək. Çıxış edənlər uğurlarımızın davamı naminə seçiciləri parlament seçkilərində YAP-ın namizədinə səs verməyə çağırıblar.

Görüş zamanı çıxış edən seçicilər də 1 sentyabr seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

# YAP ümumxalq partiyasıdır!



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində avqustun 9-da Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 79 saylı Astara seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Rəşad Mahmudovun Astara rayonunda seçicilərlə görüşü keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Astara rayon təşkilatının sədri Həbib Cəfərov bildirib ki, Yeni Azərbaycan Partiyası hər zaman bütün seçkilərə yüksək səviyyədə hazırlaşıb və daim qələbələr qazanıb. YAP-ın bu seçkilərin də qalibi olacağına şübhə yoxdur.

Çıxış edən deputatlığa namizəd Rəşad Mahmudov YAP-ın parlament seçkilərinə “Yeni dövrə Yeni Azərbaycanla!” şüarı ilə getdiyini bildirərək partiyanın seçki platformasından ətraflı bəhs edib. O qeyd edib ki, seçki platformasında bu gün qədər qazanılan uğurlar və qarşıda duran hədəflər öz əksini tapıb. R.Mahmudov qeyd edib ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib, ölkəmizin qarşısında yeni perspektivlər açılıb.

Deputatlığa namizəd çıxışında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb.

Tədbirdə çıxış edən yerli təşviqat qrupunun üzvləri parlament seçkilərində qələbələr partiyası olan YAP-ın namizədinə səs verməyə çağırış ediblər.

Qeyd edək ki, həmin gün deputatlığa namizəd Rəşad Mahmudov Astara rayonunun Məçitməhəllə kəndində də görüş keçirib, şəhidlər Nail Orucov, Rauf Cahangirov, Kənan Hacıyev və Samrad Eynullayevin ailə üzvləri ilə görüşüb.

# “Bütün hədəflərimiz reallığa çevriləcək”



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində avqustun 9-da Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 74 saylı Masallı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Məşhur Məmmədov Masallı rayonunun Öncəqala və Hüseynhacılı kəndlərində seçicilərlə görüş keçirib.

Əvvəlcə Masallı şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Görüşlərdə çıxış edən YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev Yeni Azərbaycan Partiyasının qarşıdan gələn parlament seçkilərinə qələbə əzmi ilə getdiyini bildirib. O, YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib, seçiciləri parlament seçkilərində fəal olmağa çağırıb.

Çıxış edən deputatlığa namizəd Məşhur Məmmədov Yeni Azərbaycan Partiyasının xalqın inam və etimadını layiqincə doğrultduğunu, Azərbaycanın inkişafına müstəsna töhfələr verdiyini diqqətə çatdırıb.

Azərbaycanın uğurlarından bəhs edən deputatlığa namizəd ölkəmizin ərazi bütövlüyü və suverenliyinin təmin olunmasını müasir tariximizin ən mühüm hadisəsi və möhtəşəm nailiyyəti kimi dəyərləndirib. O, yeni mərhələdə ölkəmizin qarşısında mühüm hədəflərin durduğunu diqqətə çatdıraraq Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə milli məqsədlərin bundan sonra da uğurla reallaşdırılacağına inamını ifadə edib.

Məşhur Məmmədov seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb.

Öz növbəsində çıxış edən seçicilər YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

Həmin gün deputatlığa namizəd şəhid ailələri və müharibə iştirakçılarını da ziyarət edib.

# YAP növbəti qələbəyə imza atacaq!



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 21 saylı Nəsimi-Binəqədi seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Məlahət İbrahimqızının ilk dəfə səs verəcək seçicilərlə görüşü keçirilib.

Əvvəlcə YAP Nəsimi rayon təşkilatının qərargahında Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb, Ümummilli Liderin əziz xatirəsi ehtiramla yad olunub.

Görüşdə çıxış edən YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə “Yeni dövrə Yeni Azərbaycanla!” şüarı ilə qatıldığını diqqətə çatdırıb. O, partiyanın zəngin və şərəfli inkişaf yoluna nəzər salıb, qazanılan nailiyyətlər və qarşıda duran hədəflərdən bəhs edib.

Çıxış edən deputatlığa namizəd Məlahət İbrahimqızı əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət ölkəmizin milli gücünün artmasını təmin edib. Ən mühüm nailiyyət isə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpa olunmasıdır. Vurğulanıb ki, budəfəki parlament seçkiləri ilk dəfə olaraq ölkəmizin bütün ərazilərində keçirilməsi ilə əlamətdardır.

Məlahət İbrahimqızı YAP-ın xalqın iradəsi ilə növbəti qələbəyə imza atacağına əminliyini ifadə edib, gənc seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb.

İlk dəfə səs verəcək gənclər də Yeni Azərbaycan Partiyasına olan inamlarını ifadə edərək partiyanın namizədinə səs verəcəklərini vurğulayıblar.

# Uğurlarımızın davamı naminə...




2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası tərəfindən 9 saylı Binəqədi ikinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Kamaləddin Qafarovun seçicilərlə görüşü keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə “Yeni dövrə yeni Azərbaycanla!” şüarı ilə qatıldığını diqqətə çatdırıb. O, partiyanın iştirak etdiyi bütün seçkilərdə inamlı qələbə qazandığını vurğulayıb.

Çıxış edən deputatlığa namizəd Kamaləddin Qafarov YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin uğurla davam etdirilməsi ölkəmizin davamlı və dinamik inkişafını təmin edib. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə qazanılan nailiyyətlər Azərbaycanın gücünün və nüfuzunun artmasını şərtləndirib.

O, çıxışında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədlərə - Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb.

Tədbirdə, həmçinin yerli seçki qərargahının üzvü, Vətən müharibəsi şəhidi Tural Qarayevin atası Şahin Qarayev, Vətən müharibəsi şəhidi İbrahim Sadıqlının atası Şahin Sadıqlı və digərləri çıxış ediblər. Qeyd olunub ki, Yeni Azərbaycan Partiyası xalqın inam və etibarını qazanan partiyadır. Ona görə budəfəki seçkilərdə də partiyanın parlaq qələbəsinə şübhə yoxdur.

Çıxış edənlər uğurlarımızın davamı naminə seçiciləri parlament seçkilərində YAP-ın namizədinə səs verməyə çağırıblar.

Öz növbəsində çıxış edən seçicilər YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

# YAP cəmiyyətdə yüksək nüfuza malikdir



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 104 saylı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Sevinc Hüseynovanın Gədəbəy şəhərində seçicilərlə görüşü keçirilib.

YAP Gədəbəy rayon təşkilatının sədri Rüstəm Nağıyev bildirib ki, bu seçkilərə də böyük qələbə əzmi ilə qatılan Yeni Azərbaycan Partiyası xalqın dəstəyinə güvənir. Əminliklə söyləmək olar ki, ümumxalq partiyası olan YAP növbəti dəfə möhtəşəm qələbə qazanacaq.

Çıxış edən deputatlığa namizəd Sevinc Hüseynova əvvəlcə YAP-ın seçki platforması haqqında məlumat verib. Onun sözlərinə görə, platformada qazanılan nailiyyətlərlə yanaşı, mühüm prioritet və hədəflərdən irəli gələn vəzifələr öz əksini tapıb. Deputatlığa namizəd bildirib ki, Azərbaycan öz ərazi bütövlüyü və suverenliyini tam bərpa etməklə regionda tamamilə yeni geosiyasi reallıqlar yaradıb. Şanlı Zəfərlə həm də ölkəmiz üçün yeni inkişaf mərhələsinin əsası qoyulub.

Sevinc Hüseynova vurğulayıb ki, budəfəki parlament seçkilərinin ilk dəfə olaraq ölkəmizin bütün ərazilərində keçirilməsi Azərbaycanın qüdrətinin ifadəsidir.

Deputatlığa namizəd çıxışında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb.

Tədbirdə, həmçinin təşviqat qrupunun üzvləri Tural Topçuyev, Rüfət İmamquliyev, Raifə Musayeva və digərləri çıxış edərək bildiriblər ki, YAP ümumxalq və qələbələr partiyası kimi yüksək nüfuza malikdir. Şübhə yoxdur ki, sentyabrın 1-də keçiriləcək parlament seçkilərində də YAP-ın namizədləri inamlı qələbə qazanacaqlar.

Görüşdə çıxış edən seçicilər də YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

# "Seçimimiz Yeni Azərbaycan Partiyasıdır!"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində avqustun 9-da Yeni Azərbaycan Partiyası tərəfindən 118 saylı Ağdam-Xocalı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Elman Məmmədovun Goranboy rayonu Aşağı Ağcakənd qəsəbəsində yerləşən Xocalı Rayon Mədəniyyət Evində seçicilərlə görüşü keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Xocalı rayon təşkilatının sədri Vahid Əliyev Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə böyük inamla getdiyini deyib. O qeyd edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan şanlı Zəfər ölkəmizin qüdrətini əhəmiyyətli dərəcədə artırıb. Xocalı seçiciləri möhtəşəm nailiyyətlərimizi yüksək qiymətləndirirlər.

Çıxış edən deputatlığa namizəd Elman Məmmədov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. Partiyanın "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatıldığını diqqətə çatdırıb.

Elman Məmmədov bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə bir günlük antiterror əməliyyatı nəticəsində qazanılan möhtəşəm qələbələr Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasını və üçrəngli bayrağımızın işğaldan azad edilmiş bütün ərazilərimizdə ucaldılmasını təmin etmişdir: "Bu möhtəşəm uğurlar hər birimizin qürur mənbəyidir".

Görüş iştirakçıları Kazım Rəhimov, Şakir Əliyev, Minə Həsənova və başqaları çıxışlarında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıblar.

Çıxış edən seçicilər "seçimimiz dünən, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyasıdır!", - deyə vurğulayıblar.

# YAP ölkəmizə bundan sonra da mühüm uğurlar qazandırmaq əzmindədir



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində avqustun 9-da Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 35 saylı Xətai üçüncü seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Pərvanə Vəliyevanın seçicilərlə görüşü keçirilib.

YAP Xətai rayon təşkilatının sədr müavini Vüqar Hüseynov bildirib ki, hər bir seçki kampaniyasına böyük ruh yüksəkliyi və qələbə əzmi ilə qatılan Yeni Azərbaycan Partiyası parlament seçkilərinə "Yeni dövrə yeni Azərbaycanla!" şüarı ilə gedir. Bu şüar müasir, müstəqil, qalib Azərbaycanın uğurlarının davamlılığını, hər dövrün çağırışlarını yüksək səviyyədə yerinə yetirməsini və yeni hədəfləri gerçəkləşdirmək əzmində olduğunu ifadə edir. Vüqar Hüseynov deputatlığa namizəd Pərvanə Vəliyeva haqqında seçicilərə məlumat çatdırıb.

Çıxış edən deputatlığa namizəd Pərvanə Vəliyeva əvvəlcə YAP-ın seçki platformasından bəhs edib. Bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanı yenidən qurdu, dövlətçiliyin əsaslarını yaratdı. 1993-2003-cü illərdə yaradılan möhkəm təməl 2003-cü ildən sonrakı dövrün uğurlarının əsası oldu. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanı tarixi Zəfərə qovuşdurdu. Ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam bərpa edilməsi ilə yeni dövrün əsası qoyuldu.

Deputatlığa namizəd çıxışında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb.

Tədbirdə Mürvət Əsgərov, Zaur Hüseynov, Mirfaiq Mirheydərli, Abbas Abbasov və başqaları çıxış edərək bildiriblər ki, siyasi sistemin aparıcı qüvvəsi olan Yeni Azərbaycan Partiyası Azərbaycana bundan sonra da mühüm uğurlar qazandırmaq əzmindədir.

Qeyd edək ki, həmin gün deputatlığa namizəd şəhid ailəsini ziyarət edib.

# "Yenidən Yeni Azərbaycan Partiyasının namizədinə etimad göstərəcəyik"



Azərbaycan Respublikası Milli Məclisinə sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən 102 saylı Şəmkir şəhər seçki dairəsindən namizədliyi irəli sürülmüş VI çağırış Milli Məclisin sədri Sahibə Qafarova parlament seçkilərində təbliğat-təşviqat kampaniyasına şəhid ailələrinin üzvləri, müharibə veteranları və iştirakçıları ilə görüşlə başlayıb.

Yeni Azərbaycan Partiyasının Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev seçkilərin əhəmiyyəti, Yeni Azərbaycan Partiyasının Azərbaycanın siyasi həyatında yeri və rolu barədə danışıb.

Görüşdə çıxış edən Sahibə Qafarova ölkəmizin siyasi sisteminin lokomotivi olan Yeni Azərbaycan Partiyasının bu seçkilərə Azərbaycan qələbə əzmi ilə qatıldığını qeyd edib. O, seçkilərin ölkəmizin ictimai-siyasi həyatında və gələcək inkişafında əhəmiyyətindən danışıb.

Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan dövləti həssas qrupdan olan, xüsusi qayğıya ehtiyacı olan insanlara daim diqqət və dəstək göstərir. Bildirilib ki, ölkə Prezidenti İlham Əliyev şəhid ailələrinin, müharibədə sağlamlığını itirmiş vətəndaşlarımızın problemlərinin həllini bütün dövlət qurumları qarşısında bir nömrəli vəzifə kimi müəyyən edib. O, həmçinin vurğulayıb ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən bu kateqoriyadan olan insanlara bağlı müxtəlif layihələr həyata keçirilir və bütün bunlar onu deməyə əsas verir ki, şəhid ailələri, qazilər və əhalinin digər həssas qruplarına aid olan insanlara diqqət və qayğı göstərilməsi, onların rifahının yaxşılaşdırılması dövlətimizin yürütdüyü sosial siyasətin prioritet istiqamətlərindəndir.

Yeni Azərbaycan Partiyasının namizədi vurğulayıb ki, Prezident İlham Əliyevin bu sahədə fəaliyyəti, onun şəhid ailələrinə yüksək münasibəti hər kəs üçün bir örnəkdir. Görüşdə bildirib ki, VI çağırış Milli Məclis də öz fəaliyyətində dövlətimizin başçısının tövsiyələrini həmişə rəhbər tutub. Bu baxımdan, Milli Məclis şəhid ailələrinə, döyüşdə sağlamlığını itirmiş vətəndaşlarımıza, onların sosial problemlərinin həllinə həmişə xüsusi diqqətlə yanaşıb, bu məsələləri öz fəaliyyətinin prioritetlərindən biri kimi qəbul edib. Bu sahədə dövlət siyasətinə dəstək məqsədi ilə müvafiq qanunlar qəbul edilib.

Görüşdə çıxış edən şəhid ailələri və döyüşlərdə sağlamlığını itirmiş vətəndaşlar, müharibə veteranları ölkəmizdə həssas kateqoriyadan olan insanlara Prezident İlham Əliyev tərəfindən göstərilən diqqət və qayğını yüksək qiymətləndirib, razılıqlarını ifadə ediblər. Onlar qarşıdan gələn seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədinə yenidən etimad göstərəcəklərini bildiriblər.

# YAP öz gücünü xalqın dəstəyindən alır



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində avqustun 9-da Yeni Azərbaycan Partiyasının 25 saylı Nizami ikinci seçki dairəsindən deputatlığa namizədi, YAP Sədrinin müavini Əli Əhmədovun şəhid ailələrinin üzvləri, qazilər və müharibə veteranları ilə görüşü keçirilib.

Görüşdən öncə Əli Əhmədov Ulu Öndər Heydər Əliyevin abidəsini, Keşlə Şəhidlər Xiyabanını və Vətən müharibəsi şəhidlərinin xatirə kompleksini ziyarət edib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşü giriş sözü ilə açan YAP Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatıldığını diqqətə çatdırıb. O, partiyanın hər zaman bütün seçkilərə yüksək səviyyədə hazırlaşdığını vurğulayaraq YAP-ın bu dəfə də möhtəşəm qələbə qazanacağına inamını ifadə edib.

Çıxış edən deputatlığa namizəd Əli Əhmədov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O bildirib ki, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilib, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib, bütün sahələr üzrə dinamik inkişaf qeydə alınıb. İnsanların rifah halı daha da yaxşılaşıb və xalqa verilən vədlər yerinə yetirilib.

Deputatlığa namizəd qeyd edib ki, YAP aparıcı siyasi qüvvə kimi bütün imkanlarını dövlət və xalqa naminə səfərbər edərək Azərbaycanın qazandığı davamlı uğurlara öz layiqli töhfəsini verib. Təsadüfi deyil ki, Yeni Azərbaycan Partiyası bu zamana qədər qatıldığı bütün seçkilərdə qələbə qazanıb. Prezident, Milli Məclis və bələdiyyə seçkilərinin nəticələri bütövlükdə Yeni Azərbaycan Partiyasının üstün nüfuzunu, xalqın bu partiyaya inamını göstərən başlıca amillərdəndir. Ölkədə YAP-a rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Bu, hər şeydən əvvəl Yeni Azərbaycan Partiyasının öz gücünü xalqın dəstəyindən aldığını göstərir. "Ümummilli Liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır. Potensialı, real addımları və bacarıqlı kadrları ilə xalqa xidmət edən partiyamızın gücü onun siyasi proseslərdəki mühüm rolu, iştirakı və qələbəsi ilə ölçülür. Partiyanın gücü onun ideologiyasındadır, xalqın rəğbətini, sevgisini qazanmasında, böyük sosial bazaya malik olmasında və seçkilərdə parlaq qələbələr əldə etməsindədir", - deyə Əli Əhmədov vurğulayıb.

Əli Əhmədov çıxışında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb.

Tədbirdə, həmçinin Milli Qəhrəman Eldar Xəlilovun anası Tərlan Xəlilova, Vətən müharibəsi qazisi Emin Eminov, YAP Nizami rayon təşkilatının təşviqat qrupunun üzvlərindən Milli Qəhrəman Yuriy Kovalyovun qızı Regina Kovalyova, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Nizami rayon şöbəsinin sədri Məhi Mehtiyev, "Milli Qəhrəmanları Tanıtma" İctimai Birliyinin Nizami rayon şöbəsinin sədri Ədhəm Məmmədov və digərləri çıxış ediblər.

Çıxış edən seçicilər 1 sentyabr seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

Həmin gün deputatlığa namizəd Əli Əhmədov şəhid Zakir Cəfərovun ailəsini ziyarət edib, seçki dairəsinin ən yaşlı seçicisi Xədicə İsmayılova ilə görüşüb.

# Gəncliyin seçimi Yeni Azərbaycan Partiyasıdır!



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası tərəfindən 19 saylı Nərimanov birinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Hikmət Məmmədovun ilk dəfə səs verəcək gənclərlə görüşü keçirilib.

Görüşdə çıxış edən YAP Nərimanov rayon təşkilatının sədr müavini Anar Abbasov vətəndaşların seçki hüququndan bəhs edərək bildirib ki, qarşıdan gələn parlament seçkilərində gənclərin fəal olması olduqca vacibdir. Ölkə rəhbərliyinin hər zaman gənc nəslin inkişafına, təhsilinə diqqət və qayğısını xüsusi vurğulayan Anar Abbasov gənclərin də dövlətimizin inkişafında iştirakının mühüm olduğunu qeyd edib.

Deputatlığa namizəd Hikmət Məmmədov çıxış edərək dövlətin müasir Azərbaycan gəncliyinə çox böyük önəm verdiyini vurğulayıb: "Dövlət idarəçiliyində, siyasətdə getdikcə gənclərə daha çox yer verilməsi bunun bariz nümunəsidir. Dövlətin həyata keçirdiyi müxtəlif sosial layihələr gəncliyin inkişafına böyük stimul yaradır".

YAP-ın uğurlarının bütün Azərbaycanın nailiyyətləri olduğunu qeyd edən Hikmət Məmmədov gəncləri qarşıdan gələn parlament seçkilərində fəal olmağa, Prezident İlham Əliyevin Sədri olduğu YAP-ın namizədlərinə səs verməyə çağırıb. O bildirib ki, bu, prezident seçkilərindən sonra daha bir seçkidir ki, məhz bütöv Azərbaycan ərazisində keçiriləcək. Hikmət Məmmədov gəncləri keçirilən bütün seçki kampaniyalarda fəal olmağa səsləyib.

Görüşdə çıxış edən təşviqat qrupunun üzvü Rasim Rzaxanov və partiya fəalı Aysel Tahirova Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək qayğıdan söz açıblar. Onlar Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasi ənənələrin bu gün də YAP-ın Sədri, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıblar. Nəticələr bu seçkidə də YAP-ın zəfər çalacağına inandıqlarını və bütün gənclərin partiyanın namizədlərinə səs verəcəklərini bildiriblər.

# YAP parlament seçkilərinə qələbə əzmi ilə gedir



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində avqustun 9-da Yeni Azərbaycan Partiyası tərəfindən 44 saylı Sumqayıt üçüncü seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Mehriban Vəliyevanın Sumqayıt Tarix Muzeyində seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ümummilli Lider, müasir müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının qurucusu Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb. Daha sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin məzarları ziyarət olunub, əziz xatirələri yad edilib.

YAP Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə "Yeni dövrə yeni Azərbaycanla!" şüarı ilə qatıldığını diqqətə çatdırıb. O, deputatlığa namizəd Mehriban Vəliyeva haqqında seçicilərə məlumat verib.

Çıxış edən deputatlığa namizəd Mehriban Vəliyeva əvvəlcə YAP-ın bu seçkilərə böyük uğurlarla getdiyini deyərək partiyanın seçki platforması haqqında ətraflı məlumat verib. O bildirib ki, budəfəki parlament seçkiləri ilk dəfə olaraq ölkəmizin bütün ərazilərində keçirilməsi ilə əlamətdardır. Mehriban Vəliyeva çıxışında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.

Tədbirdə çıxış edənlər uğurlarımızın davamı naminə seçiciləri parlament seçkilərində YAP-ın namizədinə səs verməyə çağırıblar. Öz növbəsində çıxış edən seçicilər də 1 sentyabr seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

Qeyd edək ki, həmin gün 44 saylı Sumqayıt şəhər üçüncü seçki dairəsindən deputatlığa namizəd Mehriban Vəliyeva Vətən müharibəsi şəhidi Ramiz Cəfərov və Eldar Abdullayevin ailəsini ziyarət edib.

# "Möhtəşəm uğurlara şahidlik edirik"




2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası tərəfindən 59 saylı Quba seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Əlibala Məhərrəmlinin YAP Quba rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Quba rayon təşkilatının sədri Fidan Hüseynova Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatıldığını vurğulayıb, partiyanın bu dəfə də möhtəşəm qələbə qazanacağına əminliyini bildirib.

Çıxış edən deputatlığa namizəd Əlibala Məhərrəmzadə ölkəmizin həyatında baş verən ictimai-siyasi proseslərdən, partiyanın qazandığı uğurlardan və gündən-günə artan nüfuzundan bəhs edib. O, Yeni Azərbaycan Partiyasının yüksək nüfuz sahibi olduğunu vurğulayıb. Qeyd olunub ki, bu gün Ulu Öndər Heydər Əliyevin siyasi varisi, dövlət başçısı, partiyamızın Sədri Prezident İlham Əliyevin rəhbərliyi ilə qalib xalqın nümayəndələri kimi möhtəşəm uğurlara şahidlik edir və gələcəyə doğru inamla addımlayırıq.

Əlibala Məhərrəmzadə seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və Azərbaycanın gələcəyinə səs verməyə çağırıb.

Tədbirdə çıxış edən görüş iştirakçıları Laçın Səfərəliyev, Elza Orucova, Ramiz Həmzəyev, Əmrulla Nurullayev, Rəxşəndə Bayramova və digərləri Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ötən illər ərzində Azərbaycanın zirvələr fəth etdiyini vurğulayaraq seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

# Xalqın inamı sonsuzdur!



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 125 saylı Zəngilan-Qubadlı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş İmamverdi İsmayılovun YAP Qubadlı rayon təşkilatının qərargahında rayon ağsaqqalları və ziyalıları ilə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub. Ümummilli Liderin və Vətən uğrunda canlarını qurban vermis şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Partiyanın Qubadlı rayon təşkilatının sədri Təhmasib Rüstəmov parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatılan YAP-ın Azərbaycan xalqının inam və etimad ünvanı olduğunu qeyd edib.

Çıxış edən deputatlığa namizəd İmamverdi İsmayılov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O vurğulayıb ki, seçkilərdə Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu və bu gün Prezident İlham Əliyevin Sədrlik etdiyi Yeni Azərbaycan Partiyasını təmsil etmək həm məsuliyyətli, həm də şərəflidir.

İmamverdi İsmayılov çıxışında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb. O, deputat seçiləcəyi təqdirdə ona göstərilən inam və etimadı layiqincə doğrultmağa çalışacağına söz verib.

Görüşdə, həmçinin Mirsədizadə Müntəxab, Əvəz Həsənov, Çimnaz Kərimova, Şamama Həsənova, Gəray Əhmədov və digərləri çıxış ediblər. Qeyd olunub ki, YAP siyasi sistemin aparıcı qüvvəsi kimi ölkəmizə mühüm nailiyyətlər qazandırmaqdadır.

Çıxış edənlər seçiciləri parlament seçkilərində YAP-ın namizədinə səs verməyə çağırıblar.

# Yeni hədəflərə doğru...



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası tərəfindən 6 saylı Ordubad-Culfa seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Vüqar Rəhimzadənin Ordubad şəhər Mədəniyyət evində seçicilərlə görüşü keçirilib.

Görüşdə çıxış edən YAP Ordubad rayon təşkilatının sədri Ehtibar İsmayılov Yeni Azərbaycan Partiyasının yarandığı gündən ümumxalq partiyası kimi nüfuz qazanmasından, Ümummilli Lider Heydər Əliyevin "YAP dünənin, bu günün və gələcəyin partiyasıdır" çağırışında ifadə edilən inamı, etimadı doğrultmasından, hazırda yeni dövrün çağırışlarına uyğun olaraq qarşıda dayanan vəzifələri Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla yerinə yetirməsindən bəhs edib. O bildirib ki, Yeni Azərbaycan Partiyası 1 sentyabr parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatılıb.

Deputatlığa namizəd Vüqar Rəhimzadə öncə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. Bildirib ki, partiyanın "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı altında təqdim etdiyi seçki platformasında Azərbaycanın 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından bu günədək keçdiyi inkişaf yolu, qazandığı uğurlar və onların əsasında qarşıdakı dövr üçün müəyyənləşdirilən hədəflər öz əksini tapıb.

Deputatlığa namizəd seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə səsləyib. Vüqar Rəhimzadə deputat seçiləcəyi təqdirdə ona göstərilən inam və etimadı layiqincə doğrultmağa çalışacağını bildirib.

Tədbirdə Naxçıvan MR-in Əməkdar həkimi Hacıağa Bağırov, rayon sakinləri Həmid Abbasov, Firdovsi Mehdiyev, Fərman Rəsulov, İbrahim Məmmədov və başqaları çıxış edərək bildiriblər ki, Azərbaycan demokratik inkişaf tarixinə növbəti uğur səhifəsini yazacaq. Seçkilərin demokratikliyini, şəffaflığını, beynəlxalq standartlara uyğun keçirilməsini təmin etmək üçün dövlətimiz bütün zəruri addımları atır.

Çıxış edənlər yeni dövrün hədəflərinin həyata keçirilməsi ilə uğurlarımızın davamlılığını təmin etmək üçün seçiciləri fəal olmağa, YAP-ın namizədinə səs verməyə çağırıblar.

Seçicilər 1 sentyabr parlament seçkilərində YAP-ın namizədinə səs verməklə Azərbaycanın uğurlu gələcəyinə dəstək olacaqlarını vurğulayıblar.

# Tarixi nailiyyətlərin davamına səs verək!



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası tərəfindən 76 saylı Lənkəran-Masallı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Cavanşir Paşazadənin YAP Lənkəran rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

YAP Lənkəran rayon təşkilatının sədri İqbal Əmənullayev Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə "Yeni dövrə yeni Azərbaycanla!" şüarı ilə qatıldığını diqqətə çatdırıb. O, Azərbaycanın müasir dövlətçilik tarixinin mühüm nailiyyətlərlə zəngin olan şərəfli bir dönəminə uğurla yekun vuraraq yeni dövrə qədəm qoyduğunu söyləyib.

Çıxış edən deputatlığa namizəd Cavanşir Paşazadə əvvəlcə YAP-ın seçki platformasından danışıb. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasi kursun Azərbaycana davamlı nailiyyətlər və möhtəşəm qələbələr qazandırdığı vurğulanıb.

C.Paşazadə seçiciləri fəal olmağa, 1 sentyabrda seçki məntəqələrinə gələrək ən layiqli namizədə səs verməyə çağırıb. O, deputat seçiləcəyi təqdirdə ona göstərilən inam və etimadı layiqincə doğrultmağa çalışacağına söz verib.

Sonra çıxış edənlər tarixi nailiyyətlərin davamı üçün seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

# Zəfər yolu ilə yeni qələbələrə!



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 101 saylı Samux-Şəmkir seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Mübariz Qurbanlının Samux rayonunun Sərkar kəndində seçicilərlə görüşü keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov bildirib ki, Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yol müstəqil Azərbaycanın müasir inkişaf tarixidir. Ümummilli Liderin "Yeni Azərbaycan Partiyası daim yaşayacaq və Azərbaycan vətəndaşlarının istək və arzularını əks etdirən böyük bir təşkilat olacaqdır" fikirləri artıq uzun illərdir reallığa çevrilib.

Çıxış edən deputatlığa namizəd Mübariz Qurbanlı əvvəlcə YAP-ın seçki platformasından bəhs edib.

O, Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ölkəmizə misilsiz tarixi nailiyyətlər qazandırdığını deyib. Mübariz Qurbanlı bu uğurların zirvə nöqtəsinin 30 illədək Ermənistanın işğalı altında qalmış torpaqlarımızın azad edilməsi - Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpası olduğunu diqqətə çatdırıb.

Namizəd işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin, sosial infrastruktur quruculuğunun davam etdirilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və qarşıda duran digər hədəflərin gerçəkləşdirilməsi naminə seçiciləri parlament seçkilərində fəal iştiraka dəvət edib.

Tədbirdə, həmçinin şəhid anası Zəminə Salmanova, kənd məktəbinin müəllimi Şəfəq Hümbətova, kənd ağsaqqalları Məhəmməd Hümbətov, Təhmasib Əliyev və digərləri çıxış edərək seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

Seçicilər 1 sentyabr tarixində YAP-ın namizədini dəstəkləyəcəklərini deyiblər.

Qeyd edək ki, həmin gün Mübariz Qurbanlı rayonun Ziyadlı kəndində də görüşlər keçirib.

# YAP ölkəmizin inkişafında müstəsna rol oynayır

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 55 saylı Siyəzən-Quba-Xızı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Müşfiq Məmmədlinin Siyəzən rayon Mədəniyyət Evində şəhid ailələri və müharibə iştirakçıları ilə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

YAP Siyəzən rayon təşkilatının sədri Samir Baxşiyev bildirib ki, Yeni Azərbaycan Partiyası zəngin və şərəfli inkişaf yoluna malikdir. Öz gücünü xalqın dəstəyindən alan Yeni Azərbaycan Partiyası böyük uğurlara imza atıb.

Çıxış edən deputatlığa namizəd Müşfiq Məmmədli əvvəlcə Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən həyata keçirilən siyasətin uğurlarından bəhs edib. O, Yeni Azərbaycan Partiyasının milli maraqları daim üstün tutduğunu və ölkəmizin inkişafında müstəsna rol oynadığını diqqətə çatdırıb.

Qazanılan tarixi uğurlar fonunda M.Məmmədli seçiciləri 1 sentyabr - növbədənkənar parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb.

Tədbirdə, həmçinin şəhid atası Tağı Ağayev, şəhid ailəsinin üzvü Hüseynbala Heybətov, qazi Cavid Abdinov və digərləri çıxış ediblər. Çıxışçılar dövlətimizin şəhid ailələrinə, qazilərə göstərdiyi diqqət və qayğıdan söz açaraq bu yöndə aparılan siyasətin yüksək qiymətləndirildiyini vurğulayıblar.

Həmin gün Siyəzən rayonu ziyalıları və ağsaqqaları ilə də görüş keçirilib. Görüşdə parlament seçkilərinin önəmindən bəhs edilib, seçicilərin Yeni Azərbaycan Partiyasının namizədinə səs vermələri üçün çağırış edilib.

Çıxış edən Nəcməddin Mürvətov, Təbrik Quliyev, Vaqif Qəhrəmanov uğurlarımızın davamı naminə seçicilərin parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.



# “KOB gömrük anbarı”

## “Yaşıl dəhliz” kiçik və orta biznes üçün asan keçidi təmin etməkdədir

İdxal fəaliyyəti ilə məşğul olan Kiçik və orta biznes (KOB) subyektlərinin işini daha da asanlaşdırmaq məqsədilə “Bakı KOB evi”ndə “KOB gömrük anbarı” yaradılıb. Dövlət Gömrük Komitəsi (DGK) və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşəbbüsü ilə yaradılan anbar” KOB-ların xaricdən ölkəyə gətirdiyi malların operativ şəkildə rəsmiləşdirilməsi, gömrük prosedurlarının asanlaşdırılması və idxal proseslərinin sürətləndirilməsini təmin edəcək. KOB-lar üçün hüquqi-institisional dəstək ünvanına çevriləcək “Gömrük anbarı” KOB-larla gömrük orqanı arasında məmnuniyyətin və gömrük xidmətlərinə əlçatanlığın təmin edilməsi, şəffaflıq və aşkarlığın artırılması istiqamətində körpü rolunu oynayacaq. Yeni xidmət strukturundan logistika şirkətləri, idxal-ixrac əməliyyatları ilə məşğul olan sahibkarların hamısı faydalanacaq. Belə ki, Bakı Baş Gömrük İdarəsi və Hava Limanı vasitəsilə ölkəyə gətirilən mallar üçün KOB subyektləri bu anbarın imkanları operativ şəkildə təmin olunacaq. 1350 kvadratmetr ərazini əhatə edən anbarda KOB subyektlərinin kiçik həcmli malları saxlanılacaq, burada fəaliyyət göstərən xidmət personalı və elektron gömrük infrastrukturları gömrük rəsmiləşdirilməsinin rahat və asan şəkildə həyata keçirilməklə bütün məlumatları “Bakı KOB evi”nə ötürəcək. Bununla da idxalçı KOB üzvlərinin idxal sənədləşdirməsi ilə bağlı çətinlikləri avtomatik olaraq öz həllini tapacaq.



KOB subyektləri ilə gömrük orqanı arasında müasir iqtisadiyyat quruculuğu və azad biznesin inkişafından irəli gələn prinsiplərə əsaslanan əməkdaşlıq təşəbbüsləri bir neçə ildir ki, davam etdirilməkdədir. 4 il əvvəl Dövlət Gömrük Komitəsi ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında qarşılıqlı əməkdaşlığa dair imzalanmış memoranduma əsasən, sahibkarlığın inkişafına dəstək, idxal-ixrac əməliyyatlarında təcrübənin bölüşməsi, fəaliyyətin asanlaşdırılması istiqamətində davamlı addımlar atılıb. Memorandumdan irəli gələn təşəbbüslər çərçivəsində gömrük nəzarəti zonalarında və gömrük rəsmiləşdirilməsinin aparıldığı digər yerlərdə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin idxal-ixrac əməliyyatları üzrə fəaliyyətinin təkmilləşdirilməsi, malların və nəqliyyat vasitələrinin düzgün bəyan edilməsinə kömək göstərilməsi, eləcə də gömrük orqanları ilə KOB-lar arasında əməkdaşlığın və qarşılıqlı etimadın gücləndirilməsi və digər birgə tədbirlərin həyata keçirilməsi təmin olunub. Bu etimadın nümunəsi olaraq “KOB Evi - Gömrük və Logistika adaları” təsis olunub. “Bakı KOB evi”nə məxus Beynəlxalq Ticarət, İnkişaf və Logistika Zonasının işi də “Gömrük anbarı” ilə əlaqələndiriləcək. Bu isə idxal-ixrac əməliyyatları üzrə sahibkarların vahid mərkəzdən lazımi xidmətləri almasına, bununla da vaxt və əməliyyat xərclərinə qənaət etməsinə imkan verəcək.

Gömrük orqanı ilə kiçik biznesin qarşılıqlı etimada əsaslanan əməkdaşlığının digər bir nümunəsi “Yaşıl gömrük dəhlizi”nin (“Yaşıl dəhliz”) qurulmasıdır. Bu çərçivəyə əsaslanaraq KOB-ların “Yaşıl dəhliz” buraxılış sistemlərindən istifadə üzrə maarifləndirilməsi və sahibkarlara məxsus malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün bu dəhlizin imkanlarının təmin edilməsi ilə bağlı bir sıra addımlar atılıb. Artıq xeyli müddətdir ki, “Yaşıl dəhliz” sistemi beynəlxalq təcrübədə mövcud olan digər buraxılış mexanizmlərinin Azərbaycanda da tətbiqinə imkan verib və hazırda “Yaşıl dəhliz” xidmətləri bütün KOB-lar üçün fasiləsiz asan rejimdə açıqdır.

Bu səmərəli əməkdaşlığın digər bir nümunəsi isə sərhəd-keçid məntəqələrində KOB-gömrük dostluğu infrastrukturunun qurulmasıdır. Bu modelin mühüm bir seqmenti kimi Gürcüstanla sərhəddə yerləşən “Qırmızı Körpü” dövlət sərhədindəki gömrük-buraxılış məntəqəsində KOB dostunun xidmət pəncərəsinin fəaliyyətə başlamasını qeyd etmək olar. Yeni xidmət məntəqəsi sahibkarlara idxal-ixrac əməliyyatları və gömrük prosedurları ilə bağlı informasiya, məsləhət və hüquqi yardım xidmətləri göstərir. Eyni zamanda sahibkarların müraciətlərinin KOBİA və Dövlət Gömrük Komitəsinin iştirakı ilə dövlət-sahibkar əməkdaşlığı çərçivəsində operativ şəkildə həll olunmasına şərait yaratmaqdadır.

Gələcək fəaliyyət hədəfləri çərçivəsində gömrük xidmətlərinin bütün biznes icması üçün daha əlçatan və əlverişli səviyyəyə yüksəltmək, risklərin tamamilə minimallaşdırmaq, gömrük inzibatçılığını çevik və optimal vəziyyətə gətirməkdir. Eyni zamada, gömrük anbarının fəaliyyəti sayəsində KOB-lar üçün gömrük prosedurlarının rəqəmsallaşdırılması və ticarətin asanlaşdırılması nəzərdə tutulur.

***E.CƏFƏRLİ***

# Rəqəmsal biznes hansı vergiləri ödəyəcək?

Asiya Bankı Azərbaycana rəqəmsal biznesin vergiyə cəlb edilməsini tövsiyə edib. Bank son illərdə hökumətin rəqəmsal iqtisadiyyat quruculuğu istiqamətində apardığı islahatları dəstəkləyərək bu sahədə vergitutma məsələlərinin tənzimlənməsini məqsədəuyğun hesab edir. Xüsusilə də, Azərbaycanda elektron ticarətin təşkili və həyata keçirilməsinin hüquqi əsaslarını, onun iştirakçılarının hüquq və vəzifələrini, habelə e-ticarət haqqında qanunvericiliyin təmin olunması rəqəmsal biznesin vergiyə cəlb olunmasına imkan verir və aktuallaşdırır.



Qeyd edək ki, bir çox inkişaf etmiş ölkələr kimi Azərbaycanda da pərakəndə ticarətin rəqibinə çevrilmiş elektron ticarət və ya rəqəmsal biznes qarşısıalınmaz nəhəng qlobal platforma kimi dayanmadan öz mövqeyini möhkəmləndirməkdədir. Bir çox ölkələrlə nisbətdə Azərbaycanda e-ticarəti tənzimləyən qaydalar kifayət qədər yumşaq olduğundan rəqəmsal biznes iştirakçıları bundan istifadə edərək vergi öhdəliklərini məsuliyyətlə yerinə yetirməyə diqqət ayırmır. Ölkəmizdə rəqəmsal biznes “Elektron ticarət haqqında” Qanun və Vergi Məcəlləsi ilə tənzimlənir ki, bu qanunvericilik sənədlərində rəqəmsal kommersiyanın vergi öhdəlikləri ilə əlaqədar bütün təfərrüatlar öz əksini tapıb.

“Elektron ticarət haqqında” qanuna əsasən elektron ticarət - informasiya sistemlərindən istifadə edilməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə həyata keçirilən fəaliyyətdir. Maliyyə bazarı, o cümlədən sığorta və qiymətli kağızlar bazarı istisna olmaqla, bu qanun Azərbaycanda bütün digər sahələrdə həyata keçirilən elektron ticarətə şamil olunur. Qanunda, həmçinin e-ticarət satışlarının və satışları həyata keçirən biznes subyektlərinin vergi ödəyicisi kimi qeydiyyata alınmalı olmasına dair tələblər də öz əksini tapıb.

Ancaq rəqəmsal kommersiyanın vergitutma mexanizmləri üçün əsas hüquqi istinad Vergi Məcəlləsidir. Məcəlləyə 2017-ci ildə edilən dəyişikliklərə əsasən, rəqəmsal iqtisadiyyatın vergiyə cəlb olunmasının hüquqi mexanizmləri müəyyənləşib.

Vergi Məcəlləsinin 125.1-1 maddəsinə əsasən, Azərbaycan rezidentləri tərəfindən qeyri-rezident şəxslərə məxsus elektron pul kisəsində yaradılan hesaba pul köçürülərkən əməliyyatı həyata keçirən yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru həmin rezidentdən köçürülən məbləğin 10 faizi miqdarında ödəmə mənbəyində vergi tutur. Qanunvericilikdə bildirilir ki, rezident vergi ödəyicisinin gəliri onun Azərbaycan Respublikasında və ölkə hüdudlarından kənarda əldə etdiyi gəlir hesab olunduğundan, sosial şəbəkələr vasitəsilə əldə edilən gəlir sahibkarlıq fəaliyyətindən əldə olunan gəlir kimi gəlir vergisinin vergitutma obyektini təşkil edir və belə gəliri əldə edən fiziki şəxs vergi orqanında vergi uçotuna duraraq qanunamüvafiq qaydada gəlirlərini bəyan etməli, vergisini hesablayaraq dövlət büdcəsinə ödəməlidir.

Vergi Məcəlləsində onlayn formada tədarük edilən xidmət və işlərə görə 18 fazi nisbətində ƏDV tutulur. Bu xidmətlərə informasiya portallarının, informasiya sistemlərinin internetdən istifadə etməklə təqdim etdiyi iş və xidmətlər daxildir. Həmin şəxslərin hamısı rəqəmsal platformalar üzərindən aparılan reklam, ticarət və digər satışlara görə, ƏDV ödəyicisi hesab olunurlar və əməliyyatları həyata keçirən müvəkkil bank tərəfindən 18 faiz vergiyə cəlb olunurlar. Bura ƏDV ödəyicisi olan hüquqi şəxslərin öz biznes kartlarından “Facebook”, “Google” kimi şirkətlərə reklam üçün ödənişləri də daxildir və onlar da ƏDV-yə cəlb olunurlar.

Bütün bu hüquqi qaydalara və vergi öhdəliklərinə baxmayaraq, rəqəmsal ticarətin vergiyə cəlb olunmasında ciddi problemlər qalmaqdadır. Elektron ticarət əməliyyatlarının virtual aləmdə həyata keçirilməsi həmin əməliyyatların vergiyə cəlb edilməsi məsələlərini çətinləşdirir. Rəqəmsal və ya elektron ticarət əməliyyatları aparan şəxslərin fərqli ölkələrin rezidentləri olması, informasiya sistemlərinin isə digər ölkələrdə yerləşməsi malların təqdim edildiyi yerin, vergi ödəyicisinin və vergi məbləğinin müəyyən edilməsini mürəkkəbləşdirir. Bu gün Azərbaycanda rəqəmsal bizneslə məşğul olan şəxslərin aldığı xidmətlərin təşkilatçısı olan şirkətlərin böyük əksəriyyəti xaricdə yerləşir və Azərbaycanda rəsmi nümayəndəlikləri yoxdur. Bu isə onların birbaşa vergiyə cəlb edilməsində əngəllər yaradır. Bir çox hallarda isə vergi ödəyiciləri elektron ticarət əməliyyatlarının virtual aləmdə həyata keçirilməsini əsas götürərək elektron ticarət əməliyyatlarına görə heç bir vergi öhdəliklərinin yaranmadığını iddia edirlər. Hazırda dünya elm və iqtisadi dairələrində e-kommersiyanın vergiyə cəlb olunmasında müxtəlif fikirlər mövcuddur.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Biznes və Sənaye üzrə Məsləhət Komitəsinin (BIAC) “Rəqəmsal iqtisadiyyatın vergi problemlərinin həlli üçün biznesin aparılması prinsipləri” adlı sənədində rəqəmsal kommersiya ilə bağlı müasir vergitutma prinsipləri əksini tapıb və bu qaydaların üzv ölkələr tərəfindən nəzərə alınması tövsiyə edilir. Ona görə də bütün dünya ölkələrində mövcud olan bu problem Azərbaycanda da aktualdır və rəqəmsal ticarət sektorunun genişlənməsi vergi siyasətində təkmilləşməni zəruri edir.

Mövcud vəziyyət göstərir ki, Azərbaycanda rəqəmsal platformalar vasitəsilə aparılan sövdələşmələr və satışlar, reklam və digər ticari əməliyyatların vergiyə cəlb edilməsi üçün əlavə tənzimlənmələrə ehtiyac vardır. Asiya Bankının Azərbaycanda rəqəmsal biznesin vergiyə cəlb edilməsi ilə bağlı tövsiyəsi də məhz bu prinsiplərə söykənir.

***E.CƏFƏRLİ***

# Ata qətlinin sirri

## Fyodor Dostoyevskinin “Karamazov qardaşları” romanı haqqında

Dostoyevski irsinin böyük tədqiqatçısı Leonid Qrossman yazıçının ədəbi yaradıcılığının həm yekunu, həm də zirvəsi sayılan, sonradan “Böyük beşlik” adı altında birləşdirilmiş romanları istər məzmun, istərsə də poetika baxımından belə təsnifləndirir: “Cinayət və cəza” - roman-tövbə; “İdiot” - roman-poema; “Şeytanlar” - roman-pamflet; “Yeniyetmə” - tərbiyəvi roman; “Karamazov qardaşları” - roman-sintez. Gerçəkdən də sonuncu əsər müəllifin həm ömründə, həm də yaradıcılığında keçdiyi mərhələlərin bir araya gətirilməsi, yekunu, sintezidir. Bu romanda biz ədibin əvvəlki əsərlərindən tanıdığımız neçə-neçə obrazla, personajla yenidən qarşılaşırıq, İvan Karamazovun timsalında Raskolnikovla, Alyoşa Karamazovun misalında knyaz Mışkinlə, Qruşenkanın simasında Nastasya Filippovna, Katerina İvanovnanın şəxsində Aqlaya İvanovna ilə bir daha rastlaşırıq.

Dostoyevski ən yetkin romanında da Dikkensdən əxz elədiyi metoda - qəhrəmanları ağa-qaraya, xeyirə-şərə, bir az da konkret desək, psixoloji tiplərə bölüb onları ideya daşıyıcılarına, ideoloji konstrukta çevirmək, bu yolla ideyaları, əqidələri çarpışdırmaq üsuluna nəinki sadiq qalıb, əksinə, metodun tələb elədiyi texniki fəndləri əvvəlkilərdən qat-qat yüksək səviyyədə, daha böyük peşəkarlıqla işlədib. Bu romanı həm bir bədii əsər, həm fəlsəfi traktat, həm də dini risalə kimi oxumaq olar. Dostoyevski son əsərinə bütün ilhamını, istedadını, bütün ağlını, zəkasını sərf eləyib, “Karamazov qardaşları”nın mövzusu, ideyası neçə il əvvəl yaransa da, yazıçı onu qələmə almağı bütün romanlarından sonraya - ömrünün qürub çağına, həm də müdrik vaxtına saxlayıb. Böyük ədəbiyyat adamlarının çoxu bu romanı müəllifin şah əsəri sayır.

“İdiot” romanında olduğu kimi burada da personajlar səhnəyə “hazır” çıxırlar, yəni öz xasiyyətləri, xislətləri, fikirləriylə birgə doğulurlar. Xarakterlər müsbət, ya mənfi mənada təkamülə uğramırlar (buna heç vaxt da yoxdur, çünki səkkiz yüz səhifəlik romanın əhatə elədiyi bütün hadisələr vur-tut iki həftə ərzində baş verir), bir-biriylə konfliktdə açılışırlar, öz potensiallarını ortaya qoyurlar - ya parlaq ideallarının zirvəsinə boylanır, ya da qaranlıq niyyətlərinin dibinə çökürlər. Dostoyevskinin istər mənəvi-etik, istərsə də bədii-estetik arsenalında nə varsa, hamısı bu romanda önə çıxarılmış başlıca ideyanın ətrafında cəmləşib. İdeya isə əvvəlkidir, dəyişməyib: iki min il əvvəl İsa Məsihin car çəkdiyi ümumbəşəri məhəbbət, könül qardaşlığı, özünü başqalarına qurban vermək, insanlığın günahlarını can bahasına satın almaq. Polifonik sənətkar kimi təqdim olunsa da, əsərlərində ideoloji opponentlərinə danışmaq üçün gen-bol imkan yaratsa da, Dostoyevski olduqca tendensiyalı yazıçıdır, onun ədəbi-fəlsəfi niyyəti bəri başdan bəllidir. Niyyət, əlbəttə, İsa Məsih platformasının, xristianlıq ideyalarının alternativsizliyini sübuta yetirməkdir.

***

Karamazov ailəsi bir atadan, bir də onun üç anadan doğulmuş dörd oğlundan ibarətdir.

Ata - xırda mülkədar Fyodor Pavloviç Karamazov arsız, pozğun, tamahkar, həm də hiyləgər adamdır. Bəzi bədnam Roma imperatorlarının xırda modelinə bənzər əlli beş yaşlı bu təlxək despot iki dəfə evlənib. Birinci arvadı varlı-hallı, nüfuzlu bir nəslin qızı olub. Fyodor Pavloviç toydan dərhal sonra onun bütün cer-cehizini mənimsəyib, üstəlik, gəlinlə çox kobud davranmağa başlayıb. Dava-şavadan, döyülməkdən bezən qadın günün birində baş götürüb Peterburqa qaçıb, üstündən çox keçməmiş orada ölüb. Özündən sonra qadının Mitya adlı üç yaşında oğlu qalıb. Fyodor Pavloviç oğlunu himayəsinə götürmək istəməyib, Mityanı anasının qohumları saxlayıb boya-başa çatdırıblar.

Beləcə, Dmitri Karamazov allahümidinə böyüyüb, gimnaziyanı bitirməmiş hərbi məktəbə girib, oradan Qafqaza yollanıb, avara-sərgərdan həyata meyil salıb, nəhayət, dueldə iştirakına görə qulluqdan qovulub. İndi o, atasından anasının mirasından özünə düşən payı istəyir, ancaq atası illər boyu ona göndərdiyi pulları əsas gətirib Mityaya heç bir borcu qalmadığını sübuta yetirir. Üstəlik bunu da deyir ki, dəqiq haqq-hesab çəkilsə, Mityanın ona borclu olduğu üzə çıxar. Mitya isə atasının dəlillərini kafi saymır, pulunu istəyir.

Fyodor Pavloviçin ikinci arvadı həlim, ürkək bir gəlin olub. Əri ona iki oğul doğan bu gəlinə də gün-dirrik verməyib, onu daim alçaldıb, onun gözü qabağında evdə orgiyalar təşkil eləyib. Bəxtsiz gəlin ikinci oğlunun dünyaya gəlməsindən dörd il sonra çərləyib ölüb. Ataları İvanla Alekseyin də qayğısını boynuna götürməyib, onlar da özgə qapısında böyüyüblər, yaxşı təlim-tərbiyə görüblər, keyfiyyətli təhsil alıblar.

Uşaqlıqdan yaxşı zehni olan İvan Karamazov əvvəl gimnaziyada, sonra universitetdə oxuyub. Tələbəlik illərində qəzetdə məqaləlrəi çıxıb, gənc yaşından cəmiyyətdə tanınmağa başlayıb. İvan ağıllı mühakimələr yürütməyin, oturuşmuş ictimai fikrə zidd qənaətlər hasil eləməyin, paradoksal məntiqi nəticələr çıxarmağın ustasıdır. Təhsilini başa vurandan sonra o, atasının yanına qayıdıb, dözülməz qocayla hələlik birtəhər yola gedir.

Kiçik qardaş Aleksey Karamazov hər yerdə hamının sevimlisidir. Hətta pozğun, əxlaqsız atası da onu o biri oğlanlarından seçir, onlara nisbətdə Alyoşaya həlim yanaşır. Sakit, mömin Aleksey qoca rahib Zosimanın təsiri altında monastıra çəkilmək istədiyini deyəndə belə atası ona mane olmayıb. Alyoşa mürşidi Zosimanın timsalında özünə mənəvi ata tapıb, qocaya elə möhkəm bağlanıb ki, artıq onsuz yaşamağı təsəvvürünə gətirə bilmir.

Bunlardan başqa ata Karamazovun divanə küçə qadını Lizavetadan doğulmuş Pavel Fyodoroviç Smerdyakov adlı qeyri-qanuni oğlu da var. Anası bu uşağı Fyodor Pavloviçin tövləsində dünyaya gətirəndən sonra əzabla ölüb. Körpəni ağasının razılığıyla mömin nökər Qriqori bəsləyib böyüdüb, ona yazıb-oxumaq öyrədib, din dərsi verib. Uşaqlığında Smerdyakovun çox sevimli bir əyləncəsi varmış - pişikləri asıb öldürüb sonra da təntənəli mərasimlə dəfn eləyərmiş. Qriqori nə qədər çalışsa da, ona insani duyğular, Allah xofu aşılaya bilməyib. İndi Smerdyakov ata evində yaxşı gitara çalan, dadlı yeməklər bişirən lakeydir.

***

Əhvalat bir əyalət şəhərində, Karamazovun malikanəsiylə monastır arasında vaqe olur. Məsələ burasındadır ki, atayla böyük oğulun dərin münaqişəsi yaranıb, həm də təkcə var-pul üstündə yox. Romanda təsvir olunan hadisələr də iki məhkəmə aralığında baş verir - başlanğıcda personajlar özlərini könüllü qaydada din xadimlərinin mühakiməsinə təslim eləyirlər, sonda isə onları məhkəmə hakimləri, müstəntiqlər, prokurorlar məhşər ayağına çəkirlər.

Dmitri Karamazov Katerina İvanovna Verxovtseva adlı kübar, gözəl bir xanıma nişanlıdır. Bu qızın vəzifəli atası romanda baş verən hadisələrdən xeyli qabaq böyük miqdarda xəzinə pulunu batırdığına görə özünə qəsd eləmək fikrinə düşür. Bundan xəbər tutan Mitya bacısıyla Katyaya xəbər göndərir ki, əgər axşam onun yanına tək gəlməyə razılaşsa, əlində-ovcunda olanı verib qızın atasını rüsvayçılıqdan, ölümdən qurtarar. Fəqət Katerina gələndə Dmitri onun düşdüyü vəziyyətdən sui-istifadə eləmir, pulu qıza eləcə təmənnasız verir. Bununla da Katyanın qəlbinə əvvəl vura biləcəyindən daha ağır xətər yetirir.

Mühakimədən yayınsa da, qızın atası çox keçməmiş dərddən ölür. Ardınca da Katerinaya bibisindən böyük miras qalır. Katya Dmitriyə namə yazıb onu sevdiyini, ona ərə getmək istədiyini deyir. Mitya bol cehizli qızla evlənməyə həvəslə razılıq verir. Fəqət qardaşı İvanın timsalında Dmitrinin rəqibi meydana çıxır, məlum olur ki, İvanla Katerina arasında sevgiyə çevrilməkdə olan gizli bir rəğbət yaranıb. Onlar bunu boyunlarına almasalar da, münasibəti örtbasdır eləmək mümkün deyil. Əslində, Katerina özünü Dmitriyə təklif eləməklə qəlbinə vurulmuş zədədən qurtulmaq, bədbəxtliyi bədbəxtliklə sağaltmaq (bir mahıda deyildiyi kimi: təzə dərdi köhnə qərdə dərman verdin...), xoşbəxtliyini travmalarına yedirtmək istəyirdi. Artıq buna ehtiyac qalmayıb, Dmitri də vəziyyətdən məmnundur, çünki o da başqasına vurulub.

Mitya Alyoşanı Katerina İvanovnanın yanına elçi göndərir ki, nişanlısının qardaşı İvana ərə getməyinə razı olduğunu ona çatdırsın. Dmitri Karamazov beş il əvvəl bir polyak zabitinin yoldan çıxardığı, sonradan varlı bir tacirin saxladığı (Nastasya Filippovnanı xatırlayaq) Qruşenka (Aqrafena) adlı qadının divanəsidir, onu almaq arzusuyla alışıb yanır. Bu biri yandan Fyodor Pavloviç də Qruşenkanın dərdindən dəli olub, onu özünə arvad eləmək üçün bütün varidatını xərcləməyə hazırdır. Ata Karamazov özünü əsla qocalmış saymır, əminliklə deyir ki, indən belə hələ iyirmi il də sağlam kişi həyatı yaşamaq fikrindədir. Dərinləşən konfliktin qarşısını almaq, atayla oğul arasında münaqişəni çözmək üçün Alyoşa onları monastıra, qoca Zosimanın hücrəsinə dəvət eləyir.

Dmitri olduqca çılğın, impulsiv tipdir, Karl Yunq beləsinə “Şiller tipi” deyirdi. Rahiblərin hüzurunda Fyodor Karamazov özü də iki böyük oğlunu Şillerin “Qaçaqlar” pyesinin qəhrəmanlarına - İvanı xeyirxah Karl Moora, Dmitrini məkrli Frans Moora bənzədir. Mitya atasının Qruşenkanı ələ almaq məqsədiylə üç min rubl hazırladığını bilir, bu səbəbdən eşq cəbhəsində məğlubiyyətə uğrayacağından bərk qorxur, qızı itirməmək üçün atasını öldürməyə belə hazırdır. Fyodor Pavloviç də öz növbəsində oğlu Mityanı nişanlısını buraxıb Qruşenkanın dalına düşdüyünə görə qınayır. Ata-oğul ağızlaşıb birbirini alçaldırlar. Monastırdakı “yoldaşlıq məhkəməsi” heç bir nəticə vermir, ata-bala Karamazovlar nəinki kompromisə gələ bilmirlər, əksinə, özlərini bir az da rüsvay eləyirlər, aralarındakı düşmənçilik daha da dərinləşir.



***F.Uğurlu***

**davamı növbəti sayımızda**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Dövlət iradəsini xalqdan alır...

## Milli maraqlarımızın qorunması həmişə prioritet olub

İctimai və milli maraqların, həmçinin dövlət maraqlarının müdafiəsi hər zaman bizim üçün ön planda olub. Respublikamızda bu məsələ bütün dövrlərdə aktuallıq kəsb edərək siyasətimizin əsas özəyini təşkil edir. Bütün dünya ictimaiyyəti üçün sirr deyil ki, Azərbaycan cəmiyyəti ictimai və dövlət marağı məfhumlarının mahiyyətini dərk edən, bu mövqeyi ictimai, siyasi münasibətlərdə və dövlətlə əlaqələrində nümayiş etdirməyi bacaran, formalaşmış yetkin bir cəmiyyətdir. Ona görə də cəmiyyətimiz intellektual əsaslarla formalaşmış modern bir cəmiyyətdir.

Prezident İlham Əliyevin yürütdüyü siyasətin təməlində dövlət maraqlarının, xalqla iqtidar arasında birliyin dayandığını bəyan etməsi heç də təsadüfi deyil. Bu o deməkdir ki, ölkəmizdə həm dövlət mənafeyinə zərər gəlməyən, həm də ictimai maraqlar təmin edilən, ortaq maraqlar müəyyənləşdirilən, üst-üstə düşən ideal siyasət formalaşıb.

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən politoloq İlyas Hüseynov bildirib ki, bir dövlətin inkişafı, təşəkkül prosesi onun hansı məfkurə və ideyalara xidmət etməsindən çox asılıdır. Onun sözlərinə görə, dövlət o vaxt sürətli inkişafla irəliləyir ki, burada xalqla dövlət maraqları ictimai maraqlarla üst-üstə düşür: “Bu, o deməkdir ki, dövlət iradəsini xalqdan alır. Bir sözlə, dövlət xalq, xalq isə dövlət deməkdir. Bir dövlətin hərtərəfli inkişafında, təbii olaraq əsas inkişaf yollarındakı məqamlar dövlətin maraqlarının xalq tərəfindən müdafiə olunmasıdır. Çünki hər bir dövlət xalqın iradəsinə söykənərək onun milli maraqları üçün çalışır, ona söykənən siyasət həyata keçirir. Bu gün Azərbaycan bu sahədə çox böyük və uğurlu addımlar həyata keçirir. Birinci məsələ odur ki, ictimai maraqların dövlət maraqları ilə üst-üstə düşməsini biz Vətən müharibəsində qazandığımız qələbədə gördük. Bütün cəmiyyət Ali Baş Komandanla birgə “Dəmir yumruq” şüarı altında düşmənin başını əzdi. Siyasi, ictimai və digər maraqlarından asılı olmayaraq, hər bir azərbaycanlı bir yumruq halında birləşərək, əzmlə mübarizə apardı. Bununla da möhtəşəm qələbəmizi qazandıq”.

**Dünyanın ən qürurlu xalqlarından birinə çevrilmişik**

İ.Hüseynov qeyd edib ki, dövlətin milli maraqlarına söykənən siyasəti həm diplomatik meydanda, həm də hərb meydanında öz uğurlu nəticəsini verdi: “Hər bir vətəndaş həmin anda bir əsgər idi. Yaşından, cinsindən, irqindən asılı olmayaraq, özünü azərbaycanlı sayan hər insan bir əsgərə dönərək, Vətənin qorunması üçün əlindən gələni etdi. Ona görə də bu gün dünyanın ən qürurlu xalqlarından birinə çevrilmişik. Təbii olaraq vətəndaşın mənafeyinin müdafiə olunması, onun maraqları üçün çalışmaq dövlətin bir nömrəli vəzifələrindən biridir. Bu mənada Azərbaycan bir sosial dövlət kimi bu siyasətini uğurla davam etdirir”.

**Hələ də görüləsi işlərimiz var**

Politoloqun fikrincə, bəzi problemlər var, lakin bu problemlərin həll edilməsi üçün dövlətlə bərabər vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatları, ictimai və digər icmalar, bələdiyyələr “canlı orqanizm” halında çalışmalı və dövlət maraqlarının müdafiəsi üçün vacib layihələri də icra etməlidirlər: “Bu mənada siyasi birliyin vəhdətində çox böyük uğurlar qazandıq. Vətən müharibəsindən keçən bu dövr ərzində bir neçəsini çıxmaqla, digər siyasi partiyalar da vacib anlarda dövlətin maraqları çərçivəsində birləşdilər və öz siyasətlərini yalnız dövlətin uğuru üçün ortaya qoydular. Eyni anda qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti bu inkişafa öz töhfələrini vermiş oldular.

Göründüyü kimi, cəmiyyətdə və onun inkişafında vətəndaş cəmiyyətinin rolu danılmazdır. Vətəndaş cəmiyyəti və qeyri-hökumət təşkilatları dövlətdən kifayət qədər dəstək alaraq özlərinin təşəbbüsü ilə müxtəlif tədbirlər həyata keçirirlər. Amma hələ də görüləsi işlərimiz çoxdur. Buna görə də qeyri-hökumət təşkilatları hələ də çox maraqlı layihələr icra etməli, əsasən də beynəlxalq miqyasda böyük inkişaf etmiş ölkələrin vətəndaş cəmiyyəti qurumları ilə əlaqəli çalışmalı və ölkəmizin uğurlu siyasətini, həmçinin prioritetlərini təbliğ etməlidirlər”.

*Yeganə BAYRAMOVA*


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti üzrə hazırlanmışdır**



**Elan**

“İpək Yolu Sığorta” ASC (VÖEN 9900002671) öz daimi fəaliyyət ünvanının dəyişdiyini elan edir. Cəmiyyətin yeni ünvanı: Bakı şəhəri AZ 1044, Xəzər rayonu, Binə qəsəbəsi, Heydər Əliyev prospekti 573, “ASG Business Aviation” MMC-nin inzibatı binası, 4-cü mərtəbə


# Avropadakı rüşvət qalmaqallarında erməni izi...

**Bütün dünyaya, xüsusilə də Şərq aləminə demokratiya, şəffaflıq və əxlaq dərsi keçmək iddiasında olan Avropanın ayrı-ayrı ölkələrinin və təsisatlarının adının rüşvət, korrupsiya qalmaqallarında hallanması son illərdə adi hala çevrilib. Bununla bağlı yeni faktlar aşkarlanıb. Belə ki, Qərb media qurumlarının hazırladığı sənədli filmdə Avropa İttifaqındakı (Aİ) erməni lobbiçilərinin rüşvət müqabilində hansı qanunsuz fəaliyyətlər həyata keçirdikləri üzə çıxıb. Lobbiçilik fəaliyyətinin mərkəzində kommersiya əlaqələrinə görə dəfələrlə cinayət məsuliyyətinə cəlb edilmiş almaz qaçaqmalçısı Kaspar Karampetyan dayanır. Qeyd edək ki, sensasiya yaradan sənədli filmi Avropa İttifaqına yaxınlığı ilə tanınan “EU Reporter” nəşri yayıb. Film Kanadanın İctimai Yayım orqanı “CBC” ilə birgə hazırlanıb.**

## AP-də 2022-ci ildə baş vermiş rüşvət biabırçılığının yeni təfərrüatları

Təqdim olunan filmdə yaxın tarixdə Avropa təsisatlarında erməni lobbisinin bilavasitə iştirakı ilə baş vermiş bir neçə rüşvətvermə və rüşvətalma qalmaqalına işıq salınıb. O cümlədən ssenari müəllifləri 2022-ci ildə Avropa Parlamentində yaşanan rüşvət biabırçılığına diqqət çəkiblər. Bəli, Avropa Parlamentinin adı 2022-ci il dekabrın birinci ongünlüyündə yeni bir rüşvət qalmaqalı ilə gündəmə gəldi. Belçika Federal Prokurorluğunun Avropa Parlamentinin vitse-prezidentlərindən biri olan yunanıstanlı deputat Eva Kailinin də iştirak etdiyi korrupsiya üzrə istintaqın başlandığını və AP-də çalışan 10 nəfərin kompüter sistemlərinə girişinin bloklandığını açıqlaması “qoca qitə”də bir növ soyuq duş effekti yaratdı. Hətta Avropa İttifaqı məkanından kənar coğrafiyalar üzrə də müxtəlif məsələlərlə bağlı qərarlar və qətnamələr imzalayıb bunları etalon sənədlər kimi təqdim edən AP-də korrupsiya? Əgər belə bir iddia quruma üzv olmayan kənar bir dövlətdən gəlsə idi, AP dərhal bunu qərəzçiliklə əlaqələndirər və deputatlar həmin ölkəni, yumşaq desək, ağ yuyub qara sərərdilər. İndiki halda isə AP ilə bağlı rüşvət ittihamları “qoca qitə”nin siyasi mərkəzlərinin birindən eşidilirdi və burada özünümüdafiəyə yer yox idi.

Hadisələr ildırım sürəti ilə inkişaf etdi. Artıq dekabrın 11-də məlum oldu ki, Avropa Parlamentinin vitse-prezidenti, yunan əsilli siyasətçi Eva Kaili və daha 3 nəfər Qətərdə keçirilən futbol üzrə dünya çempionatı ilə bağlı korrupsiya faktı üzrə ittiham olunaraq həbsə alınıblar. Bundan əvvəl isə Avropa Parlamentinin plenar iclasında deputatlar böyük korrupsiya qalmaqalı fonunda AP-nin vitse-prezidenti Eva Kailinin vəzifəsindən azad edilməsinin lehinə mütləq səs çoxluğu ilə səs veriblər. Belçika Prokurorluğundan verilən məlumata görə, istintaq çərçivəsində evlərdə və ofislərdə olmaqla təxminən 20 ünvanda reyd və axtarışlar aparılıb. Axtarışlar nəticəsində şübhəli şəxsin evində 600 min avro, Brüsseldə otel otağında çantada bir neçə yüz min avro, Avropa Parlamenti deputatının mənzilində isə 150 min avro və digər belə faktlar aşkar edilib.

Sonradan AP rəsmiləri qurumu təmizə çıxarmaqdan ötrü çoxsaylı cəhdlər göstərdilər, müxtəlif səpkili izahatlar verdilər. Lakin artıq qatar getmişdi. İndi isə həmin rüşvət biabırçılığının daha geniş təfərrüatları üzə çıxıb. Belə ki, təqdim olunan filmdə 2022-ci ildə rüşvətxorluq, qeyri-qanuni ticarət əlaqələri ilə sarsılan və Avropa Parlamentinin vitse-prezidenti də daxil olmaqla dörd Aİ siyasətçisinin həbsi ilə nəticələnən prosesdə erməni lobbisinin izlərinin üzə çıxması ilə bağlı məlumatlar da yer alıb. Bildirilir ki, bəhs olunan dövrdə Avropa İttifaqında çətiri erməni lobbisi olan “Ədalət və Demokratiya uğrunda Avropa Erməni Federasiyası”nın (EAFJD) və Avropa Parlamentində “erməni dostluq qrupu”nun avropalı siyasətçilərə rüşvət verdikləri isbatlanıb.



## Erməni lobbisinin bədnam fəaliyyətindən təsirlənən Aİ-Azərbaycan münasibətləri

Yaşanan geosiyasi reallıqlar fonunda Azərbaycanın Avropa İttifaqı üçün önəmi heç vaxt olmadığı qədər artıb. Məlumdur ki, kollektiv Qərbin Rusiyaya əhatə dairəsi kifayət qədər geniş olan sanksiyalar tətbiq etməsinin, o cümlədən də bu ölkədən enerji daşıyıcılarının tədarükünə məhdudiyyətlər qoyulması nəticəsində Avropanın enerji təchizatında çətinliklər yaşanır. Azərbaycan isə Avropada yaşanan enerji çətinliklərinin aradan qaldırılmasına sanballı töhfələr verməyə qadir ölkədir. Hazırda Cənub Qaz Dəhlizinin timsalında müasir nəql infrastrukturuna malik olan respublikamız “qoca qitə” üçün yeni resurs mənbəyi qismində çıxış edir. Bundan başqa, həmişə öhdəliklərinə sadiq qalması və ədalətli enerji siyasəti həyata keçirməsi ölkəmizin cəlbediciliyini daha da artırır.

Bütövlükdə, Avropa İttifaqında Azərbaycanın imkanları və “qoca qitə” üçün önəmi yüksək dəyərləndirilsə də, Fransa kimi ölkələr, Avropa Parlamenti kimi təsisatlar ikitərəflli münasibətlərə xələl gətirmək üçün zaman-zaman məkrli ssenariləri işə salırlar. Xatırladaq ki, son illərdə adıçəkilən ölkənin Senatında və AP-də Azərbaycana qarşı bir neçə qərəzli qətnamə qəbul olunub, hətta sanksiyaların tətbiqinə çağırışlar edilib. Təəssüf doğuran haldır ki, Avropa İttifaqında reallıqla bir araya sığmayan, ikitərəfli münasibətlərin ruhuna uyğun gəlməyən addımlar bu gün də təkrarlanır. Məsələn, Fransa Ermənistana davamlı şəkildə öldürücü silahlar göndərməklə məğlub ölkəni yeni müharibəyə, qisasçılığa ruhlandırır. Bir qədər bundan əvvəl Aİ-nin Sülh Fondu deyilən təsisatı Ermənistana hərbi məqsədlər üçün yeni maliyyə tranşı ayırdı. Başqa belə faktlar da sadalamaq mümkündür.

Azərbaycana qarşı bu cür qərəzli davranışların məhz Avropadakı güclü erməni lobbisindən qaynaqlandığı heç kəsdə şübhə doğurmur. Bəhs olunan filmdə bu, bir daha təsdiqlənib. Filmdə Aİ-nin Azərbaycana münasibətinin Ermənistanın lobbiçilik fəaliyyətindən təsirləndiyi barədə məlumatlar yer alıb. Süjetlərdə Aİ üzvlərini Ermənistana tez-tez aparan şəxsin Karampetyan olduğu bildirilir: “Avropa İttifaqı qurumları Azərbaycan və Ermənistan arasında güclü sülh və barışıq layihəsi üçün çalışarkən, qitədəki erməni lobbisi bu səyləri baltalayır”, - deyə filmdə vurğulanıb.

Bunlarla yanaşı bildirilir ki, Karampetyan bir tərəfdən Belçikadakı erməni mafiyasının lideri, digər tərəfdən isə Azərbaycanın işğaldan azad etdiyi Qarabağda separatçı rejimin idarəçilərini qoruyan şəxs olub. Sənədli filmdəki məlumata görə, Karampetyan Ermənistandakı separatçı təşkilatlar üçün də tez-tez ianə toplantıları təşkil edir və silahlı qruplaşmalara milyonlarla dollar həcmində vəsait göndərir.

Filmdə Aİ-nin mərkəzi strukturlarının da hər fürsətdə Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyinə qarşı toplantılar keçirdiyi bildirilir. Süjetlərdə danışan naşirlər, jurnalistlər və tədqiqatçılar da vurğulayırlar ki, sözügedən lobbi Ermənistanın İkinci Qarabağ müharibəsində törətdiyi insanlığa qarşı cinayətlərin Aİ qarşısında “ört-basdır edilməsində” intensiv fəallıq nümayiş etdirir.

*Mübariz ABDULLAYEV*

# İxtisas seçimi başladı...

Dünəndən etibarən ali təhsil müəssisələrinə ixtisas seçimi başlayıb. Dövlət İmtahan Mərkəzindən (DİM) bildirilib ki, ixtisas seçimi bütün ixtisas qrupları üzrə 2024-cü il avqustun 9-dan 19-dək internet vasitəsilə aparılır.



DİM 2024/2025-ci tədris ili üçün respublika ali təhsil müəssisələrinin ixtisas qruplarında Azərbaycan və rus bölmələri, hər iki bölmənin birgə müsabiqəsi üzrə tələbə qəbulu planı və dövlət sifarişi üzrə yerlərin sayı təqdim edilib.

**Ən çox plan yeri I ixtisas qrupundadır**

DİM-dən verilən məlumata görə, 2024/2025-ci tədris ili üçün ali təhsil müəssisələrinin I ixtisas qrupuna Azərbaycan bölməsi üzrə 13 min 315, rus bölməsi üzrə 785 plan yeri nəzərdə tutulur. Hər iki bölmənin birgə müsabiqəsi üzrə tələbə qəbulu planı 5890 yer olmaqla, I ixtisas qrupu üzrə ümumilikdə 19 min 990 yer ayrılıb. Bundan 14 min 407 yerə qəbul dövlət sifarişi əsasında aparılır.

**II ixtisas qrupunda 4390 yer dövlət sifarişlidir**

Mərkəzdən bildirilib ki, II ixtisas qrupuna Azərbaycan bölməsi üzrə 11 min 335, rus bölməsi üzrə 575 plan yeri nəzərdə tutulur. Hər iki bölmənin birgə müsabiqəsi üzrə tələbə qəbulu planı 2640 olmaqla, II ixtisas qrupu üçün cəmi 14 min 550 plan yeri ayrılıb. II ixtisas qrupunda 4390 yer üzrə qəbul isə dövlət sifarişi əsasında aparılır.

**Rus bölməsinin plan yeri III qrupda çoxdur**

III ixtisas qrupuna isə Azərbaycan bölməsi üzrə 11 min 854, rus bölməsi üzrə 1410 plan yeri nəzərdə tutulur. Hər iki bölmənin birgə müsabiqəsi üzrə tələbə qəbulu planı 2195 yer olmaqla, III ixtisas qrupu üzrə ümumilikdə 15 min 459 yer ayrılıb. Bu yerlərdən 4318-nə qəbul dövlət sifarişi əsasında aparılır.

**IV qrupda plan yeri daha azdır**

DİM-dən qeyd edilib ki, IV ixtisas qrupuna Azərbaycan bölməsi üzrə 3520, rus bölməsi üzrə 330 plan yeri nəzərdə tutulur. Hər iki bölmənin birgə müsabiqəsi üzrə tələbə qəbulu planı 750 olmaqla, IV ixtisas qrupu üçün ümumilikdə 4600 plan yeri ayrılıb. Bu yerlərdən 3135-nə qəbul isə dövlət sifarişi əsasında aparılır.

İxtisas qrupları üzrə builki ballara nəzər saldıqda, ötən illə müqayisədə ötən illə müqayisədə bu il ballarda ciddi artım müşahidə olunur. Maraqlıdır, rəqabət ən çox hansı qruplarda müşahidə ediləcək?

## Hansı qrupda vəziyyət gərgin olacaq?

Sualımızı cavablandıran təhsil üzrə ekspert Elçin Əfəndi “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, birinci ixtisas qrupunda 500-dən çox bal toplayan abituriyetlərin sayı daha çoxdur: “Ötən illə müqayisədə bu il ballarda ciddi artımı 3-cü ixtisas qrupunda da görə bilərik. Üçüncü ixtisas qrupundakı TC alt qrupunda yüksək bal toplayanların sayı ötən illə müqayisədə kifayət qədər artıb. Dördüncü ixtisas qrupunuda da 500- 600 bal toplayan abituriyentlərin sayı keçən illə müqayisədə çoxdur. Bu, o deməkdir ki, builki statistik göstəricilərə əsasən, ötən illə müqayisədə ballarda ciddi şəkildə artım müşahidə olunub. I, II və III qruplarda gərgin müsabiqə vəziyyəti olacaq”.

**Abituriyentlər bu səhvə yol verirlər...**

Ekspert bildirib ki, abituriyentlərə 15 ixtisası seçmək tövsiyə olunur: “Onlar ixtisas seçərkən təkcə bu il nəşr olunan jurnallara baxmamalıdırlar. Ötən illərin plan yerlərinə, keçid ballarına da nəzər salmalıdırlar. Təəssüf ki, abituriyentlər keçənilki balla seçim etdiklərinə görə, yanlışlıqla qəbul ola bilmirlər. Elektron ərizlərində iki-üç yer seçirlər. Lakin abituriyentlər 15 yeri mütləq doldursunlar ki, əks halda qəbul olmamaq ehtimalları çoxala bilər”

*Yeganə BAYRAMOVA*


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4738
Sifariş: 1788
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova